www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-8 sentyabr 2025-ci il Şənbə № 159 (8769) Qiymәti 60 qəpik

**Xəbər**

## Naxçıvanda ailə faciəsi - Ana, bala və nənə...

yazısı səh.2-də

**Gündəm**

### İran Zəngəzur dəhlizində "payçı" olacaq?



Politoloq: "Müxtəlif güclər yolun açılmaması üçün çalışır"

yazısı səh.6-da

### Overçukun Bakı və İrəvana şifrli mesajının açması

yazısı səh.3-də

### Azərbaycana daha bir böhtan - Ukraynada hərbi təyyarəmiz...

yazısı səh.9-da

### Avropanın Rusiya xofu - blef, yoxsa...

yazısı səh.4-də

### Erməni spikerdən Bakıya qarşı həyasızlıq

yazısı səh.9-da

### Azərbaycanda quş əti istehlakı kəskin azalıb - səbəb

yazısı səh.10-da

### Qızıl alanlar, tələsin! Bu ayın sonunadək...

yazısı səh.12-də

### Kim 150 il yaşamasa... - Ömrün uzadılmasında yeni mərhələ

yazısı səh.13-də

### Viruslar qayıdır - 9 gün sonra...

yazısı səh.15-də

### Azərbaycan xaricə qurbağa ayağı satır - Səbəb

yazısı səh.11-də

### Millimizin İslandiya siftəsi - Özbəkistan səviyyəsinə necə çatmaq olar?

yazısı səh.14-də

# KREMLİN FAŞ OLAN KOMPENSASİYA YALANI - BAKI TƏLƏBİNİ TƏZƏLƏDİ

Vurulan təyyarəmizlə bağlı yeni gəlişmə; Rusiyanın beynəlxalq məsuliyyətdən yayınmaq cəhdi növbəti dəfə boşa çıxdı



yazısı səh.5-də

## Şadlıq sarayları əhaliyə "toy tutur": məcburi menyu problemi

Restoranlar vəziyyətdən sui-istifadə edir; insanların məclisdən tez getməsi üçün konkret "alqoritm" müəyyən edilib

yazısı səh.14-də



*Hikmət Babaoğlu:*

### "Arxa planda bu prosesdə Rusiyanın əli var"

yazısı səh.4-də



### Paşinyandan böyük erməni yalanına zərbə

yazısı səh.7-də



*Zülfüqar Yusifov:*

### "Onlayn apteklərin mütəmadi monitorinqi aparılmalıdır"

yazısı səh.12-də

# İki gün qaldı - bunu etməyənlər tələbə ola bilməyəcək



Ali təhsil müəssisələrinə qəbul olunan abituriyentlər 28 avqust - 8 sentyabr (saat 18:00-dək) tarixlərində portal.edu.az platformasında qeydiyyatdan keçməli və yaradılmış kabinetə daxil olduqdan sonra təqdim edilən xidmətlər sırasında "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçməlidirlər.

Abituriyentlər qeydiyyat prosesi ilə bağlı məsələləri portal vasitəsilə dəqiqləşdirə bilərlər. Müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri ali məktəbə göndərilməyəcək.

Modern.az qeydiyyatdan keçənlərin sayını öyrənmək üçün bir neçə ali təhsil müəssisəsi ilə əlaqə saxlayıb.

Azərbaycan Dövlət Pedaqoji Universitetindən (ADPU) sorğumuza cavab olaraq bildirilib ki, universitetin bakalavriat səviyyəsinə qəbul olunmuş 2696 abituriyentdən 2607-si (yəni 96%) artıq portal üzərindən müraciətini tamamlayaraq göndərib. Onlardan 2403 nəfərin (92%) müraciəti universitet tərəfindən təsdiqlənib, 204 nəfərin sənədləri isə baxış mərhələsindədir.

Azərbaycan Dövlət İqtisad Universitetindən (ADİU) isə 3700-ə yaxın abituriyentin qeydiyyatdan keçdiyi bildirilir.

Azərbaycan Dillər Universitetində (ADU) ali təhsil müəssisələrinə qeydiyyatdan keçənlərin sayı isə 1770 nəfər təşkil edir. Xəzər Universitetindən verilən məlumata görə, bu tədris ili üzrə qeydiyyatdan keçənlərin sayı 1407 nəfərdir ki, bu da 91,5% təşkil edir.



## Prezident sərəncam imzaladı

**Prezident İlham Əliyev Göygöl rayonunun Göygöl-Topalhəsənli-Şəhriyar (8 km)-Zurnabad-Gəncə-Mollacəlilli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

"Yeni Müsavat" sərəncamın mətnini təqdim edir:

1. İki min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Göygöl-Topalhəsənli-Şəhriyar (8 km)-Zurnabad-Gəncə-Mollacəlilli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## Milli Məclisin xüsusi iclası keçiriləcək

**Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin 2-ci hissəsinə əsasən, Milli Məclisin deputatları parlamentin növbədənkənar sessiyasının çağırılması barədə spiker Sahibə Qafarovaya müraciət ediblər. Bu barədə APA-ya Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən xəbər verilib.**

Milli Məclisin sədri Sahibə Qafarova müraciəti nəzərə alaraq, Milli Məclisin növbədənkənar sessiyasının çağırılması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, sentyabrın 9-da Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində "Vaşinqton razılaşmaları: sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi" mövzusunda xüsusi iclas keçiriləcək.

## "Çinar" MTK vətəndaşı aldadıb

**Çoxmərtəbəli yaşayış binasından mənzil almaq üçün 30 min manat ödəyən Bakı sakini aldadıldığını iddia edir. Xəzər TV xəbər verir ki, hadisə paytaxt sakini Elman Məmmədovun başına gəlib.**

Elman Məmmədov "Çinar" MTK-dan mənzil almaq üçün 24 min manat ilkin ödəniş etdiyini, 4 ay ərazində isə ümumilikdə 6 min manat ödədiyini deyir. Ödənişləri də sənədlər əsasında etdiyini bildirir.

Daha sonra MTK sədri dəyişib və yeni sədr onun sənədlərinin saxta olduğunu bildirib.

Elman Məmmədovun sözlərinə görə, oxşar halla bağlı onun kimi bir neçə şikayətçi var. Məsələ ilə bağlı "Çinar" MTK-nın sədr əvəzi Abbas Dadaşov bildirdi ki, əvvəlki rəhbərlik xeyli adamı aldadıb.

Hüquqşünaslar isə bildirirlər ki, pul ödəyib bünövrədən ev alan şəxs bu cür halla qarşılaşdıqda məhkəməyə müraciət etməli, məsələyə orada hüquqi qiymət verilməlidir.

## Axtarışda olan 102 nəfər tutuldu

**Sentyabrın 4-də ölkə ərazisində qeydə alınan 37, əvvəlki dövrlərdən bağlı qalan 11 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub. DİN-in Mətbuat Xidmətindən Modern.az-a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 102, o cümlədən borclu şəxs qismində axtarışda olan 69 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Narkotiklərlə əlaqəli 8, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 7 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 33 nəfər saxlanılıb.**



## İstirahət mərkəzində bir ailənin 3 üzvü öldü

**Şahbuzda istirahət mərkəzində su üzərində olan platformanın aşması nəticəsində ölən şəxslərin adları məlum olub.**

APA-nın yerli bürosunun xəbərinə görə, hadisə zamanı 1983-cü il təvəllüdlü Hüseynova Sevinc Abdulla qızı, onun qızı 2011-ci il təvəllüdlü Hüseynova Ceyran Tural qızı və onun nənəsi 1947-ci il təvəllüdlü Məmmədova Səkinə Xəlil qızı vəfat edib.

Qəza zamanı Naxçıvan şəhər sakinləri 1983-cü il təvəllüdlü Hüseynov Tural Əli oğlu və onun oğlu, 2007-ci il təvəllüdlü Hüseynov Nicat Tural oğlu xəsarət alıblar. Onlar Naxçıvan Muxtar Respublika Xəstəxanasına yerləşdiriliblər. Faktla bağlı Şahbuz Rayon Prokurorluğunda araşdırma aparılır.

## Bakıda yağış, rayonlarda sel və dolu olacaq

**Azərbaycanda sentyabrın 6-da havanın yağışlı olacağı, bəzi yerlərdə şimşək çaxacağı gözlənilir. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Günün birinci yarısında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimal olunur. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 20-25, gündüz 28-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu, nisbi rütubət isə gecə 70-75 %, gündüz 50-55 % təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı ehtimal olunur. Mülayim şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 32-37, dağlarda gecə 13-18, gündüz 23-28 dərəcə isti olacaq.

## Tovuzda və Füzulidə yanğın törədənlər saxlanıldı

**Sentyabr ayının 4-də Füzuli rayonunun Babı kəndinin ərazisində yanğın hadisəsi törədən şəxs polis əməkdaşları tərəfindən saxlanılıb. DİN-in Mətbuat Xidmətinin regional qrupundan "Unikal"a bildirilib ki, araşdırmalarla yanğını 23 yaşlı Ələkbər Fərəməzovun törətdiyi müəyyən olunub. Hadisə nəticəsində 1 hektar ərazidə əkin sahəsi yanıb. Ə.Fərəməzov barəsində inzibati qanunvericiliyə uyğun olaraq 400 manat məbləğində inzibati tənbeh tədbiri tətbiq olunub.**

Tovuz rayon Qəribli kəndi ərazisində də yanğın hadisəsi törədən şəxs polis əməkdaşları tərəfindən müəyyən olunub. Bildirilib ki, yanğının 1982-ci il təvəllüdlü Mahir Əliyevin həmin ərazidə ocaqla ehtiyatsız davranması nəticəsində baş verdiyi məlum olub. Nəticədə 30 sot ərazidə biçilmiş əkin sahəsi yanıb. M.Əliyev saxlanılaraq barəsində inzibati qanunvericiliyə uyğun məsuliyyət tədbiri görülüb.

## Adəm Məmmədov həbsdən buraxılıb

**Həbsdə olan keçmiş vəkil Adəm Məmmədov azadlığa buraxılıb. Bu barədə APA-ya onun vəkili İmran Ələkbərov məlumat verib. Adəm Məmmədovun həbs müddəti başa çatdığı üçün o, bu gün 9 saylı Cəzaçəkmə Müəssisəsindən azad edilib.**



Xatırladaq ki, Adəm Məmmədov bu il martın 5-də həbs edilib. Bununla bağlı Nərimanov Rayon Məhkəməsi qərar verib.

Adəm Məmmədov vəkil Ceyhun Yusifovun iddiası əsasında Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə təqsirli bilinərək 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Bundan başqa, məhkəmə C. Yusifovun müraciəti əsasında A. Məmmədovun qardaşı Xəyyam Məmmədovu 6 ay müddətinə islah işləri cəzasına məhkum edib.

Qeyd edək ki, Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27 yanvar tarixli qərarı ilə Adəm Məmmədovun fəaliyyəti 3 ay müddətinə, vəkil Ceyhun Yusifovun fəaliyyəti isə 27.11.2024 tarixdən 1 illik dayandırılmışdı.

Vəkillər Kollegiyası (VK) Rəyasət Heyətinin ötən ay keçirilən iclasında məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən, Adəm Məmmədovun vəkillik fəaliyyətinə xitam verilməsi ilə bağlı qərar qəbul olunub.

## Xızıda üstünə darvaza aşdı, öldü

**Xızıda 36 yaşlı kişi üstünə darvaza aşması nəticəsində ölüb. APA xəbər verir ki, hadisə Xızının Sitalçay adlanan ərazisində baş verib. 1989-cu il təvəllüdlü Ceyhun Qəzənfər oğlu Həsənov öz həyətində olarkən üzərinə darvaza aşıb. O, aparıldığı Sumqayıt şəhər xəstəxanasına həyatını itirib. Faktla bağlı araşdırma aparılır.**

YENİ MÜSAVAT
N 159 (8769) 6 sentyabr 2025

# Overçukdan Bakı və İrəvana şifrli mesaj - Açması...

## Rusiya narazı qaldığını gizlədə bilmir



**"Rusiya regionda sülhün möhkəmlənməsinə töhfə hesab etdiyi Azərbaycan və Ermənistan arasında imzalanmış sazişə ehtiyatlı nikbinliklə yanaşır". Bunu Rusiya baş nazirinin müavini Aleksey Overçuk deyib.**

O, Bakı ilə İrəvan arasında imzalanmış sazişi sülhün möhkəmlənməsinə sərmayə adlandırıb. "Biz Ermənistan və Azərbaycan arasında ilkin razılaşmaya çox ehtiyatlı nikbinliklə baxırıq. Bu, həm də böyük Avrasiya regionumuzda sülhün möhkəmlənməsinə mühüm töhfədir", - o deyib.

Rusiyalı məmur "ehtiyatlı nikbinlik" ifadəsi ilə nəyə işarə vurur - Moskvanın gizli narazılığına?

Qeyd edək ki, Overçukdan əvvəl Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova 10 noyabr üçtərəfli sənədin aktuallığını saxladığını bildirib. Bu bəyanatlar isə Rusiyanın hələ də 8 avqust anlaşması ilə barışa bilmədiyini göstərir. Halbuki Moskvadan başqa heç bir tərəf bu razılaşmaların dayanıqlı olacağına şübhə etmir. Rusiya isə Ağ Evdə əldə olunan razılaşmanın pozulmasında maraqlı olduğu hiss olunur.

Yada salaq ki, Ermənistan Baş naziri Nikol Paşinyan artıq Ermənistan, Rusiya və Azərbaycan liderlərinin 10 noyabr 2020-ci il üçtərəfli bəyanatının qüvvədən düşdüyünü bildirib. Paşinyan deyib ki, noyabrın 10-na qayıtmağa ehtiyac yoxdur: "10 noyabr 10 noyabrda qaldı".

Overçukun açıqlamasını necə oxuyaq?

Politoloq Yusif Bağırzadə "Yeni Müsavat" bildirdi ki, Rusiya tərəfi nə etsə də, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasından, eləcə də iki dövlət arasında əldə edilən razılaşmalardan narazı olduğunu gizlədə bilmir. Overçukun Rusiyanın Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinə "ehtiyatlı nikbinlik"lə baxdığını deməsi də əslində bunun bariz sübutudur: "Uzun illər ərzində Azərbaycan və Ermənistan arasında mövcud olan münaqişəyə tərəflərə təsir etmək imkanı kimi baxan Rusiya, 44 günlük savaşdan sonra Xankəndi və ətrafındakı separatçı rejimin qalıqlarını öz qanadı altına alaraq onların mövcudluğunu davam etdirməsi və bununla da öz maraqlarını təmin etmək üçün əlindən gələn hər şeyi etdi. Separatçı rejimə silah tədarükü, pasport paylanması, məişət şəraitlərinin yaxşılaşdırılması və s. bunun bariz sübutudur. Lakin bir neçə gündən sonra ikinci ildönümünü qeyd edəcəyimiz antiterror tədbirlərindən sonra vəziyyət dəyişdi. Rusiya istəməsə də "sülhməramlı" adı ilə ərazilərimizə yerləşdirdiyi qoşunlarını çıxarmaq məcburiyyətində qaldı və tək ümidi Zəngəzur dəhlizinə nəzarət imkanı əldə etməklə yenə də region ölkələri üzərində təsir imkanlarını saxlamaq oldu. İndi Rusiya bu imkanı əldə etmək və əldən buraxmamaq uğrunda mübarizə aparır".

Politoloq qeyd etdi ki, əslində 8 avqsut Vaşinqton razılşması Rusiyanın bu arzusunu həyata keçirməsinin qarşısını alıb: "Buna görə də hər keçən gün təsir imkanlarını itirən Rusiya aqressivləşməyə başladı. Yekaterinburq hadisələri, iş adamlarımıza və diaspor təşkilatlarımıza edilən hücumlar, Odessada SOCAR-a məxsus obyektlərin, səfirliyimizə yaxın ərazilərin hədəfə alınması da bir tərəfdən aqressivlik əlaməti idisə, digər tərəfdən də təsir imkanlarını itirməkdən doğan acizliyin göstəricisi idi. Bu da fayda vermədiyi üçün indi Rusiya tərəfi əldə olunan razılşamaları sülhün əldə edilməsi üçün töhfə adlandırır, amma bir tərəfdən də narazılığını gizlədə bilmədiyi üçün buna ehtiyatlı nikbinliklə baxdığını deyir. Bu, əslində, Overçukun timsalında rəsmi Kremlin Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına olan narazılığının etirafı kimi qəbul olunmalıdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Erməni spikerdən Bakıya həddini aşan iddia

## Paşinyanın adamı "8-ci maddə"yə qarşı

**Ermənistan parlamentinin sədri Alen Simonyan Qırğızıstanda səfərdədir. Erməni mediası yazıb ki, bu Türk ölkəsinin parlament sədri ilə görüşdə Bakı və İrəvan arasında sülhün bərqərar olması prosesinə xüsusi toxunulub.**

İlk baxışda rutin səfərdir. Amma bir "əmma" olmasaydı. Məsələ ondadır ki, Simonyan həmin görüş zamanı sülh prosesinə zərbə vuran, Azərbaycan dövlətinə qarşı yönəlik bəzi ifadələr işlədib, həddini aşıb. Məsələn, erməni spiker həmkarının diqqətini "Bakıda qanunsuz saxlanılan hərbi əsirlər və itkin düşən hərbçilərlə bağlı məsələyə" yönəldib...

Dərhal qeyd edək, Simonyan sıradan biri deyil, ölkəsinin üçüncü rəsmi şəxsidir. Odur ki, "ağzının danışdığına" mütləq fikir verməlidir. Axı o, hansı əsirlərdən dəm vurur? Azərbaycana qarşı ağır cinayətlərdə ittiham olunan separatçı-xuntaçılar nə vaxtdan "hərbi əsir" statusu daşıyır? Ümumiyyətlə, bu barədə qırğız spikerlə müzakirə aparmaqda məqsəd nədir?

Nəhayət, Alen Simonyan hansı haqla Azərbaycandakı məhkəmə prosesini şübhə altına alır? Onun davam edən məhkəmə prosesində şahidlərin verdiyi qandonduran ifadələrdən xəbəri varmı?

Başqa yandan, Paşinyan özü böyük sülh prosesinə xələl gətirməmək üçün bu mövzuda ehtiyatla danışdığı halda onun komanda yoldaşının sırtıqlığının adı nə? Hər şey qıraqa, spikerin iddiaları Paşinyanın avqustun 8-də Ağ Evdə imza atdığı üçlü Birgə Bəyannaməyə ziddir. Hansı sənədin ki, dördüncü bəndində deyilir: "Tərəflər bir-birinin daxili işlərinə müdaxilədən çəkinəcəklər". Digər bir bənddə isə tərəflər arasında qarşılıqlı etimad tədbirlərinin vacibliyindən söz açılır. O zaman "o nə pəhriz, bu nə turşu"...

Doğrudur, paraflanmış sənəd hələ sülh müqaviləsi deyil. Ancaq onu qeyri-ciddiyə almaq da daha mümkünsüz. 8 avqustdan sonra iki ölkə münasibətlərində artıq yeni mərhələyə girib. Bu dönəmdə köhnə "toksik" leksikon ümumi işə yalnız zərər yetirə bilər. Üstəgəl, Trampın öz imzası ilə yazılı şəkildə zamin durduğu Birgə Bəyannamə.

Yaxud Ağ Evdə paraflanmış sülh sənədinin VIII maddəsində deyilir: "Tərəflər dözümsüzlük, irqi nifrət və ayrı-seçkilik, separatizm, zorakı ekstremizm və terrorizmin bütün təzahürlərini pisləyir və özlərinin müvafiq yurisdiksiyaları çərçivəsində bu hallarla mübarizə aparacaqlar və özlərinin bununla bağlı müvafiq beynəlxalq öhdəliklərinə əməl edəcəklər".

Hanı bəs? Ermənistanın üçüncü rəsmi şəxsi niyə separatizmdə, zorakı ekstremizmdə və terrorizmdə, bəşəri cinayətlərdə suçlanan şəxsləri müdafiə edir, onları utanmazcasına "hərbi əsir" adlandırır? Ona görə ki, ermənidirlər? Guya bilmir ki, Azərbaycanda hərbi əsir və ya girov yoxdur?!

Qısası, erməni tərəfi "qaş düzəldən yerdə göz çıxarmağa" davam edəcəksə, Azərbaycan, əlbəttə ki, bunu cavabsız qoymayacaq. Yekun etibarilə barışıq prosesinin uzanmasının altını ən çox Ermənistan və onun əhalisi çəkəcək. Çünki təcrid durumunda olan biz deyilik. Azərbaycanın itirəcəyi bir şey yox...

❑ **Analitik xidmət,**
**Musavat.com**

# Revanşist "Ayakve"dən savaş çağırısı

**Sülh imzalanmış sənədlərlə deyil, real güc balansı ilə müəyyən olunur. Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu sözlər Ermənistanın revanşist "Ayakve" hərəkatının bəyanatında yer alıb.**

"Əgər real güc balansını öz xeyrinə dəyişməmisənsə, sülhdən danışmaq sadəcə seçkiqabağı təşviqatdır. Paşinyanın öz tərəfdarlarına ünvanladığı son mesajları da eyni mahiyyət daşıyır - bunlar seçkiqabağı vədlərdir, amma heç bir halda sülh deyil.

Paşinyan deyir ki, guya biz Qarabağ məsələsindən imtina edir və bunun müqabilində sülh əldə edirik. Halbuki bu məntiqlə Ermənistan məsələsindən 30 il əvvəl də imtina edib "sülh qazana" bilərdi",-deyə bəyanatda qeyd olunub.

Sonda "Ayakve" hərəkatı bir daha erməniləri savaşa səsləyib. Onlar illərlə bundan geri çəkilmədiklərini bildiriblər. Hərəkat iddia edir ki, bu məsələ ermənilərin "kimlik məsələsi"dir.

❑ **Musavat.com**

# ABŞ Ukrayna və Rusiya arasında bufer zonanı monitorinq edəcək?



**ABŞ Ukrayna və Rusiya arasında sülh sazişi əldə olunacağı halda bufer zonanın monitorinqində aparıcı rol oynaya bilər.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu barədə NBC News məlumat yayıb.

Məlumata görə, bufer zona Ukraynanı Rusiyanın gələcək hücumlarından qoruyacaq geniş demilitarizasiya olunmuş ərazi olacaq. Onun təhlükəsizliyini isə NATO-ya daxil olmayan bir və ya bir neçə ölkənin - məsələn, Səudiyyə Ərəbistanı və ya Banqladeşin qoşunları təmin edə bilər.

NBC News-un ayrıca xəbərinə görə, prezident Donald Tramp münaqişənin yaxın vaxtlarda başa çatacağı və ya Rusiya və Ukrayna prezidentlərinin şəxsi görüşü perspektivinə getdikcə daha pessimist yanaşır.

Ötən ay Alyaskada keçirilən sammitdə Tramp Rusiya prezidenti Vladimir Putini təmtəraqla qəbul etmişdi. Lakin hələlik Moskvanın müharibənin dayandırılması şərtlərini yumşaltmağa və ya belə bir görüşə razı olmağa hazır olduğuna dair açıq əlamətlər yoxdur.

Reuters bu məlumatı dərhal təsdiqləyə bilməyib. Ağ Ev isə agentliyin iş vaxtından kənar müraciətinə cavab verməyib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 159 (8769) 6 sentyabr 2025



## Azərbaycana qarşı Rusiya-Hindistan sinxron planı

### Hikmət Babaoğlu: "Düşünürəm ki, arxa planda bu prosesdə Rusiyanın əli olub"

**Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Çində keçirilən sammitində Azərbaycanın təşkilata üzvlüyünün bloklanması ilə bağlı yeni məqamlar ortaya çıxıb. Bu barədə APA diplomatik mənbələrdən daxil olan məlumata əsasən yazıb. Xəbərdə deyilir ki, Azərbaycanın ŞƏT-ə üzvlüyünün bloklanması təkcə Hindistanın təşəbbüsü ilə olmayıb, Rusiya da bu prosesdə yaxından iştirak edib. Bu prosesdə əsas rolu isə Rusiya Xarici İşlər Nazirliyi oynayıb. Mənbənin sözlərinə görə, Azərbaycanın ŞƏT-ə üzvlüyünün bloklanması məsələsi Rusiya və Hindistan arasında siyasi məsləhətləşmələrdə müzakirə olunub, müvafiq razılığa gəlinib. Sadəcə, Rusiya prosesdə Hindistanı qabağa verib, özü arxa planda dayanıb.**

Mənbə onu da deyir ki, Rusiyanın bu hərəkəti həm də Çinə qarşı hörmətsizlik kimi qəbul olunmalıdır. Çünki Çin Şanxay ruhuna uyğun olaraq təşkilatın genişləndirilməsi üçün addımlar atır. Azərbaycanın ŞƏT-ə üzvlüyünə Pekin də ciddi dəstək verib. Lakin Çində keçirilən sammitdə Rusiya və Hindistan Azərbaycanın təşkilata üzvlüyünü bloklamaqla, həm də Çinə qarşı hörmətsizlik nümayiş etdirib.

Məsələ ilə bağlı Milli Məclisin deputatı Hikmət Babaoğlu "Yeni Müsavat"a bildirdi ki, Rusiyanın zahirən bir cür, arxada isə başqa cür davranması birinci belə təcrübə deyil: "Biz dəfələrlə Rusiya-Azərbaycan münasibətlərində bənzər təcrübələri yaşamışıq. Amma Azərbaycan diplomatiyası və xarici siyasəti soyuqqanlı diplomatiya olduğu üçün belə məsələləri çox da qabartmır. Nəticə etibarilə bu cür davranışlar iki qonşu ölkə arasında münasibətlərə heç də müsbət təsir göstərmir. Rusiyanın və Hindistanın bu cür davranışları əslində hər iki ölkənin birgə səyləri ilə oturduqları budağı kəsməyə bənzəyir. Nəticə etibarilə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına üzv olması bu təşkilata üzv olan ölkələrə Azərbaycanın imkanlarının təqdim olunması deməkdir. Çünki Rusiya ilə Hindistanı birləşdirəcək Şimal-Cənub dəhlizi məhz Azərbaycan üzərindən keçir, məhz Zəngəzur dəhlizi üzərindən keçəcək. Azərbaycan üzərindən keçməklə ikinci marşrut İran üzərindən keçəcəkdir. Belə olan halda bu cür mövqe anlaşılan, izah edilən və başa düşülən deyil".

Deputat buna görə də düşünür ki, arxa planda bu prosesdə Rusiyanın əli olub: "Biz Rusiya-Azərbaycan münasibətləri tarixində bunun çoxsaylı analogiyalarını görmüşük. Bu ehtimal tamamilə mümkündür. Ancaq nəticə etibarilə iki böyük ölkənin birlikdə kiçik saydıqları Azərbaycana qarşı sinxron hərəkət etmələri əslində Azərbaycanın böyüklüyünün göstəricisidir və ironik bir hadisədir".

❑ **Elbar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Avropanın Rusiya xofu - blef, yoxsa...



**"Ağlı başında olan insan yaxşı bilir ki, Rusiyanın heç kimə hücum etmək kimi bir istəyi yoxdur və olmayıb".**

Belə bir açıqlamanı Rusiya prezidenti Vladimir Putin Slovakiyanın baş naziri Robert Fiko ilə görüşdə verib. "Biz görürük ki, Rusiyanın guya Avropaya hücum etməyi planlaşdırması ilə bağlı davamlı olaraq isteriya yaradılır. Düşünürəm ki, ağlı başında olanlar üçün bu, anlaşılan bir təxribat və ya tam qeyri-peşəkarlıqdır", - Putin iddia edib.

Qərb paytaxtlarında isə, əlbəttə ki, Putinin nəinki sözünə, heç imzasına da inam yoxdur. O səbəbdən Qərb Ukraynaya qarşı işğalçı müharibə ilə böyük ölçüdə Avropa ölkələrini də təhdid edən Rusiyanın cilovunu necə yığmaq barədə səylərini davam etdirir. Lakin aydındır ki, bu məsələdə əsas yük ABŞ, Almaniya, Böyük Britaniya və Fransanın üzərinə düşəcək. Almaniya kansleri Fridrix Merts bu xüsusda deyib ki, Putinin "atəşkəs əldə olunması üçün heç bir səbəbi yoxdur" və "Qərb özü belə bir səbəbi yaratmalıdır".

"Hərbi baxımdan çətindir, amma iqtisadi cəhətdən mümkündür. Biz elə etməliyik ki, Rusiya müharibə iqtisadiyyatını qoruya bilməsin. Mən Rusiya ilə hələ də fəal ticarət edənlərə qarşı tariflər vasitəsilə iqtisadi tükənməyə nail olmaqdan danışıram. Və bu məsələdə biz yenə üzümüzü Amerikaya tuturuq", - kansler vurğulayıb.

Merts daha sonra Putini "müharibə cinayətkarı" adlandırıb və əlavə edib: "Bəlkə də zəmanəmizin ən pis hərbi cinayətkarıdır. Burada güzəştə getmək yersizdir".

"İstəklilər koalisiyası" iclasında Böyük Britaniyanın baş naziri Kir Starmer də Rusiyaya qarşı kəskin mövqe sərgiləyib. O, çıxışı zamanı Putinə güvənməyin mümkün olmadığını bildirib. Onun sözlərinə görə, Kreml rəhbəri qəsdən sülh danışıqlarını uzadır, eyni zamanda, Ukraynaya yeni zərbələr endirir.

"Qrup Ukraynaya dönməz dəstək vədi verdi və bu, Prezident Trampın dəstəyi ilə gücləndirildi. İndi isə daha qətiyyətli addımlar atmaq, Putinə təzyiq göstərmək və döyüşlərin dayandırılmasına nail olmaq zəruridir", - deyə Starmer vurğulayıb.Avropa və ABŞ Rusiyanın müharibə iqtisadiyyatını tükətmək məsələsində nəhayət, vaxtında ortaq məxrəcə gələ biləcəkmi?

Siyasi şərhçi Heydər Oğuzun fikrincə, ABŞ və Avropanın qarşıya qoyduğu məqsəd təkcə Rusiyanın müharibə iqtisadiyyatını çökdürmək deyil. Heydər Oğuz "Yeni Müsavat"a deyib ki, ABŞ və Avropa Rusiyanı bütövlüklə iqtisadi cəhətdən çökdürmək istəyirlər: "Bu isə ilk növbədə dünyanın enerji bazarını Rusiyanın üzünə bağlamaqdır. Qlobal enerji bazarı təkcə Qərbin inhisarında olmadığından bu hədəfi reallaşdırmaq o qədər də asan olmayacaq. Çünki indiki vəziyyət 1990-cı illərdən fərqlənir. SSRİ-nin dağıldığı zamanlar Uzaq Şərq ölkələri indiki qədər güclü deyildi. Çin yeni-yeni ABŞ-la diplomatik münasibətlərini bərpa edib onunla iqtisadi inteqrasiyaya başlamışdı. Buna görə də ABŞ-ın çəkdiyi cızıqdan kənara çıxa bilmirdi. Üstəlik, onun üzərinə qoyulan bir vəzifə vardı - Rusiyadan uzaq dayanmaq. İqtisadi cəhətdən Qərb investisiyalarından asılı olduğundan Pekin onun üçün hazırlanan bu missiyadan boyun qaçırmaq gücündə deyildi. İndi isə ABŞ və Qərb sərmayələri ilə inanılmaz tərəqqi prosesi keçirən Çinin öz maraqları meydana gəlib və istər-istəməz müstəqil hərəkət etməkdə maraqlıdır. Eyni sözləri Hindistan üçün də deyə bilərik. Statistik rəqəmlərə inansaq, Çin 2025-ci il etibarilə gündə təxminən 16,4 milyon barel neft istehlak edir və bu, ona dünyanın ən böyük ikinci neft istehlakçısı adı qazandırıb. Hindistan isə gündə təxminən 5,6 milyon barel neft istehlak edir. Dünyanın ən böyük iqtisadiyyatına malik olan ABŞ-ın gündəlik neft hasilatına nəzər salanda isə görürük ki, bu rəqəm hardasa 19,6 ilə 20 milyon barel arasında dəyişir. Belə anlaşılır ki, Çinlə Hindistanın enerji istehlakları bir yerdə ABŞ-ı üstələyir. Bu isə Uzaq Şərqdə yeni neft bazarının ortaya çıxmasını tətikləyir".

Hazırda qlobal neft və qaz satışlarının 50%-dən çoxunun Nyu-York Ticarət Birjası (NTMEX) və London Qitələrarası Birjasında (ICE Futures Europe) reallaşdığını xatırladan həmsöhbətimiz bildirdi ki, Uzaq Şərqdə enerji tələbatının yüksək olması yeni enerji bazarlarının da meydana çıxmasına zəmin hazırlayır: "Hazırda Sinqapur Ticarət Birjası (SGX) və İran Neft Birjası (IOB) kimi xırda bazarlar bu tələbatı ödəmək gücündə deyil. Üstəlik, Qərbin sıxışdıraraq Asiyaya yaxınlaşdırdığı Çin və Hindistan öz ehtiyaclarının mühüm qismini birbaşa Rusiyadan alır. Bu da onlara imkan verir ki, yeni neft bazarı kimi ortaya çıxsınlar. Və artıq onların bu təşəbbüslə çıxış etdiyi də gözlərdən yayınmır. Bilirsiniz ki, Hindistan Rusiyadan aldığı nefti rafinə edərək hətta Avropa ölkələrinə də satırdı. ABŞ-ın bütün təhdidlərinə baxmayaraq, Hindistan bu işdən əl çəkmədi və hətta ŞƏT sammitində aktiv iştirak edərək geosiyasi oriyantasiyasını dəyişdirə biləcəyi siqnallarını verdi. Çin rafinə etdiyi rus neftini başqa bazara satmaq ehtiyacı olmadığından daxili tələbatını bu yolla ödəyir. Eynilə qardaş Türkiyənin də artıq neft və qaz mərkəzinə çevrilmək istiqamətində addımlar atmağa hazırlaşdığı da gözlərdən yayınmır. Bu isə o deməkdir ki, artıq enerji bazarı anqlosakson ittifaqın nəzarətindən tam çıxır. Nəticədə Rusiyanı iqtisadi cəhətdən çökdürmək də çətinləşir".

Bununla belə, Heydər Oğuzun fikrincə, Rusiyanı çökdürməyin yolu tam bağlanmayıb da: "Rusiyaya qarşı iqtisadi və hərbi savaş birlikdə aparılarsa, yəni hibrid müharibə nəticəsində Qərb ölkələri öz hədəflərinə çata bilərlər. Amma bunun üçün özləri də qollarını çırmalayıb Ukrayna ilə birlikdə savaşmalıdırlar. Avropalılar isə bundan çəkinirlər. Çünki rifah içində yaşamağa öyrəşiblər və bu konfortlarını əldən vermək istəmirlər. Ona görə də yenə ABŞ-ın himayəsinə sığınıb Vaşinqtonun arxasında gizlənməyə çalışırlar. Vaşinqton isə artıq bu humayədarlığı yürüdə bilmir. Məncə, Avropa özündən qaynaqlanan bu müftəxorluğundan əl çəkmədikcə, öz avantajlarını tamamilə itirib dünya hegemoniyası səhnəsindən çəkiləcəklər. Başqa sözlə, bu gün Avropada yaşanan siyasi, hərbi və iqtisadi böhran yalnız Ukrayna ilə bağlı deyil. Daha çox Avropanın dişsizliyi ilə bağlıdır. Dünyanın nizam tarixinə nəzər salanda görürük ki, dişsiz siyasətlə uzağa getmək olmaz. Əvvəl-axır yeni ortaya çıxan dövlətlərin yeminə çevrilə bilərsən. Qısası, Avropada yaşananlar blef deyil, çarəsizlikdir".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

Yeni MÜSAVAT

N 159 (8769) 6 sentyabr 2025

# Rusiyanın kompensasiya yalanı ifşa olundu - sərt reaksiyalar

**Xəbər verdiyimiz kimi, ötən gün Rusiya Xarici İşlər Nazirliyi "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Rusiya səmasında vurulması ilə bağlı sığorta kompensasiyasının ödənildiyini iddia edib.**



Qurumun məlumatına görə, təyyarə üçün ümumilikdə 1,003 milyard rubl məbləğində sığorta vəsaiti ayrılıb. Həmçinin qəza nəticəsində həlak olan və xəsarət alan sərnişinlərin ailələrinə bu günə qədər 358,4 milyon rubl ödəniş həyata keçirildiyi açıqlanıb."15 Rusiya vətəndaşından 7-si, 38 Azərbaycan vətəndaşından 35-i, Qırğızıstan vətəndaşlarından 3-ü, Qazaxıstan vətəndaşlarından 6-nın hər birinə vəsaitlər tam ödənilib", - açıqlamada bildirilib.

Qəza zamanı həlak olan milli qəhrəman Hökumə Əliyevanın atası Cəlil Alıyev isə Modern.az-a bildirib ki, Rusiya onun ailəsinə heç bir ödəniş etməyib: "Nə vaxt sığorta ödənişi ediblər?! Bizim xəbərimiz yoxdur, yalan söhbətdir".

AZAL-ın qəzaya uğrayan təyyarəsinin sağ qalan əməkdaşı, bələdçi Zülfiqar Əsədov da kompensasiya ödənişi ilə bağlı xəbərlərin həqiqət olmadığını deyib. O, Teleqraf-a açıqlamasında yayılan iddiaları yalanlayıb:

"Yalan məlumatdır. Mənə və digər bələdçi Aydan Rəhimliyə sığorta ödənişi olunmayıb. Bizə Rusiya tərəfindən heç nə verilməyib və Rusiya tərəfindən kimsə bizimlə əlaqə saxlamayıb".

Qeyd edək ki, 2024-cü il dekabrın 25-də baş verən qəza nəticəsində 38 nəfər həlak olub, 29 nəfər sağ qalıb.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib "Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkətinə məxsus təyyarənin vurulması nəticəsində qəzaya uğraması ilə bağlı sığorta ödənişlərinin həyata keçirilməsi məsələsi ilə əlaqədar Rusiya Federasiyası Xarici İşlər Nazirliyi tərəfindən 4 sentyabr tarixli açıqlama təəccüb doğurmaqla yanaşı, ictimaiyyəti çaşdırır. O, qeyd edib ki, AZAL-a və sərnişinlərə Rusiyada qeydiyyatda olan sığorta şirkəti tərəfindən sığorta ödənişlərinin həyata keçirilməsi və təyyarənin vurulması ilə bağlı ölkəmizin Rusiya hökumətindən kompensasiya tələb etməsi məsələləri tamamilə fərqli mövzulardır: "Sözügedən şirkət tərəfindən qeyd edilən sığorta ödənişlərinin təşkili prosesi artıq 6 aydır həyata keçirilir. Ümumilikdə, bu ödənişlər məhz AZAL-ın sığorta müqaviləsi çərçivəsində, şirkətin təyyarəsini və sərnişinləri sığorta etməsi nəticəsində öhdəliklərə uyğun olaraq təmin edilir. Ödənişlərin məhz Rusiya sığorta şirkəti tərəfindən həyata keçirilməsi məsələsinə gəldikdə, qeyd edək ki, adətən təyyarələrin sığortası müvafiq beynəlxalq sığorta şirkətləri vasitəsilə həyata keçirilir. Rusiyanın ərazisində heç bir beynəlxalq sığorta şirkətinin fəaliyyət göstərmədiyini nəzərə alaraq, AZAL təyyarəsinin sığortası Rusiya şirkəti vasitəsilə aparılıb. Beləliklə, sığorta ödənişlərinin Azərbaycanın Rusiya hökumətindən tələb etdiyi kompensasiya ilə eyniləşdirilməsi cəhdləri düzgün deyil".

Ayxan Hacızadə bildirib ki, Azərbaycan-Rusiya münasibətlərinin gərginləşməsinə məhz AZAL təyyarəsinin vurulması nəticəsində qəzaya uğraması və bundan sonra Rusiya rəsmiləri tərəfindən göstərilən davranışın səbəb olduğu məlumdur: "Bununla yanaşı, Rusiyada etnik mənsubiyyətə görə azərbaycanlıların təqib olunması, Yekaterinburq şəhərində azərbaycanlıların döyülərək qətlə yetirilməsi münasibətlərdə əlavə gərginlik yaradıb. Bununla yanaşı, Rusiyanın müxtəlif dövlət qurumlarının Azərbaycana qarşı fəaliyyəti münasibətlərə mənfi təsir edən amillər sırasındadır.

"Bakı" hüquq şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a dediyinə görə, Azərbaycana məxsus mülki sərnişin təyyarəsinin hərbi hədəf kimi vurulması faktının ortadadır və bu, beynəlxalq hüququn ən ciddi pozuntularından birinə çevrilib: "Burada söhbət dövləti məsuliyyətidən gedir. 1944-cü il tarixli Çikaqo konvensiyası mülki aviasiyanın əsas konstitusiyası sayılır. Konvensiyaya görə, dövlətlər mülki təyyarəni hərbi vasitələrlə vurmaq hüququna malik deyillər. Bu, açıq şəkildə qadağan olunub. Əgər belə bir hal baş veribsə, pozuntuya görə üzr istəmək və məsuliyyəti tanımaq, tam kompensasiya ödəmək, zərərin bərpası üçün bütün vasitələri təmin etmək öhdəliyi yaranır.

Məsələn, 1983-cü ildə SSRİ Yaponiya üzərində Cənubi Koreyanın sərnişin təyyarəsini vurdu, nəticədə 269 nəfər öldü. SSRİ uzun müddət məsuliyyəti rədd etdi, lakin beynəlxalq təzyiqlərdən sonra məsuliyyətini qəbul etdi.

2014-cü ildə Ukrayna üzərində Rusiya tərəfindən dəstəklənən qüvvələr Malayziyaya məxsus sərnişin təyyarəsini zenit-raket kompleksindən açılan atəşlə vurdu. Nəticədə 298 nəfər sərnişin öldü. Niderland məhkəməsi məsuliyyəti Rusiyanın üzərinə qoydu, zərərçəkənlərin ailələrinə kompensasiya ödənilməsinə qərar verdi.

Bu presedentlər göstərir ki, mülki təyyarəni vurmaq dövlətin beynəlxalq məsuliyyətini mütləq şəkildə yaradır.

Rusiya Azərbaycan sərnişin təyyarəsini vurmaqla, Çikaqo konvensiyasını və beynəlxalq humanitar hüququ kobud şəkildə pozub. Bu halda hadisə sadəcə "sığorta hadisəsi" ola bilməz, çünki sığorta yalnız texniki qəzalar və fors-major hallara aiddir. Burada isə Rusiya dövlətinin qanunsuz hərbi əməliyyatı var. Azərbaycan tərəfi haqlı olaraq beynəlxalq hüquqa əsaslanaraq Rusiya Federasiyasının rəsmi üzr istəməsini, həm həlak olanların ailələrinə, həm də təyyarənin məhv edilməsinə görə kompensasiya ödənilməsini, günahkar şəxslərin (əmri verən və icra edən hərbçilərin) cinayət məsuliyyətinə cəlb olunması tələb edir.

Rusiyanın ötən aylar ərzində üzr istəməkdən, kompensasiya ödəməkdən yayınması tam qanunsuzdur. BMT-nin hüquq qaydalarına görə, beynəlxalq hüququn pozulmasına görə öhdəlikdən yayınmaq olmaz. Bu, ümumbəşəri xarakter daşıyan - "erga omnes" öhdəlikdir. Sığorta ödənişləri məsuliyyəti əvəz etmir, hətta əgər sığorta şirkəti qismən kompensasiya ödəyibsə, bu, dövlətin beynəlxalq məsuliyyətini ortadan qaldırmır. Rusiya bəzi vətəndaşlara ödəniş etdiyini deyib. Tutaq ki, belədir. Fakt odur ki, Azərbaycan vətəndaşları olan qurbanların hüquqi varislərinə və zərərçəkənlərə kompensasiya ödənməyib. Bu, beynəlxalq hüquqda ayrı-seçkilikdir və hüquqi baxımdan yolverilməzdir.

Bu baxımdan Azərbaycanın üzrxahlıq və kompensasiya tələb etmək hüququ var. Həm dövlət olaraq (diplomatik nota, beynəlxalq məhkəmələrə müraciət), həm də zərərçəkmiş fərdlərin Avropa İnsan Haqları Məhkəməsinə müraciəti ilə təmin olunmalıdır.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**




## Avropa Rusiyadan enerji idxalını daimi olaraq qadağan etməyə hazırlaşır

**Brüssel Rusiyaya qarşı sərt addım atmağa hazırlaşır. Musavat.com xəbər verir ki, Avropa Komissiyası Rusiyadan enerji resurslarının idxalını tamamilə dayandırmağı planlaşdırır.**

Avropa Komissiyasının energetika üzrə üzvü Dan Yorgensen bildirib ki, məqsəd mümkün qədər tezliklə Rusiyadan enerji asılılığından qurtulmaqdır. O əlavə edib ki, bu qadağa müharibə başa çatsın ya bitməsin, daimi olacaq: "Bu müvəqqəti sanksiyalar deyil, bu, daimi qərardır. Qəbul edildikdən sonra Avropa bir daha Rusiyadan bir molekul qaz belə almayacaq".

Yorgensen həmçinin vurğulayıb ki, Avropa üçün Rusiyadan enerji asılılığından qurtulmaq prioritet məsələdir.

❑ **Musavat.com**

## Zelenski: "Putin, nəhayət, Ukraynanın Aİ-yə üzvlüyünü qəbul edir"

**Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya liderinin Ukraynanın Avropa İttifaqına üzvlüyünü artıq qəbul etdiyini açıqlayıb.**

Musavat.com xəbər verir ki, Zelenski bildirib ki, bu qərarın qəbul edilməsinin gecikməsi təəssüf doğurur, çünki Moskva 2013-cü ildən bu fikrə doğru gedirmiş.

O əlavə edib ki, Putin artıq bunu qəbul etsə də, bəzi Avropa ölkələri, xüsusilə də Macarıstan, məsələyə diqqət yetirməlidir.

Zelenski həmçinin qeyd edib ki, Tramp ilə söhbət zamanı ABŞ Prezidenti Avropa ölkələrinin hələ də Rusiyadan neft və qaz almasına narazılıq ifadə edib.

❑ **Musavat.com**

## İtaliya baş naziri Corciya Meloni porno saytın qurbanı oldu: prokurorluq iş açdı

**İtaliya prokurorluğu qadın siyasətçilərin və jurnalistlərin, o cümlədən baş nazir Corciya Meloninin montaj edilmiş şəkillərinin yerləşdirildiyi pornoqrafik saytla bağlı istintaqa başlayıb.**

Musavat.com xəbər verir ki, bu barədə Politico saytı məlumat yayıb.

İtaliya lideri baş verənləri "iyrənc" adlandıraraq, günahkarların "ən sərt şəkildə" cəzalandırılmasını tələb edib.

Florensiyada istintaq bir neçə mərkəzçi-solçu siyasətçinin şikayəti əsasında başlanıbmışdı. İndi isə yüzlərlə qadın polisə müraciət edərək işə qoşulub. Bu hadisənin qadınların şəxsi intim fotolarını paylaşan "Mia Moglie" adlı Facebook qrupunu da əhatə edən daha geniş "intiqam porno" istintaqına daxil edilməsi planlaşdırılır. Meta ötən həftə bu qrupu böyüklərin seksual istismarına qarşı siyasəti pozduğuna görə bağlayıb.

"Baş verənlər məni dəhşətə gətirdi. Bütün təhqir olunan və alçaldılan qadınlara həmrəylik və dəstəyimi ifadə etmək istəyirəm. Təəccüblüdür ki, 2025-ci ildə hələ də qadın ləyaqətini ayaqlar altına atmağı normal və qanuni sayanlar var. Bu adamlar həmin işləri klaviatura arxasında və ya anonimlikdə gizlənərək edirlər" - deyə Meloni Corriere della Sera qəzetinə bildirib.

Xatırladaq ki, İtaliya 2019-cu ildə "porno intiqam" haqqında qanun qəbul edib. Bu qanuna görə şəxsi istifadə üçün nəzərdə tutulmuş seksual xarakterli foto və ya videoların yayılması cinayət sayılır.

❑ **Musavat.com**



## The Hill: “Zəngəzur dəhlizi üzrə saziş ABŞ-ın qələbəsi, İranın məğlubiyyətidir”

**ABŞ prezidenti Donald Tramp ötən ay Ağ Evdə Azərbaycan prezidenti və Ermənistanın baş nazirini qəbul edərək Zəngəzur dəhlizi üzrə sülh sazişini rəsmiləşdirib.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu sözlər The Hill saytının analitik yazısında yer alıb.

“İlk baxışdan bu, sülhə doğru addım təsiri bağışlasa da, İran üçün ciddi strateji zərbə oldu.

Sazişə görə, Azərbaycanla onun anklavı - Naxçıvan arasında birbaşa yol bağlantısı yaradılacaq. Marşrut Ermənistan ərazisindən keçəcək və həmin ərazi Ermənistanın suverenliyi və nəzarəti altında qalacaq. Beləliklə, dəhliz İrandan yan keçəcək, eyni zamanda ABŞ-ın Cənubi Qafqazda uzunmüddətli mövcudluğunu rəsmiləşdirəcək: Vaşinqton 99 illik imtiyaz müqaviləsi əsasında “Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu” (TRIPP) adlandırılan yolun inkişaf hüququnu əldə edib.

İran üçün bu, mühüm tranzit vasitəsinin itirilməsi deməkdir. Onilliklər boyu məhz coğrafi mövqeyi Tehrana regional tranzit siyasətində çəkidə qalmağa imkan verirdi. İndi isə bu üstünlük aradan qalxır.

Dəhliz daha geniş tendensiyanın bir hissəsi oldu: İranın xarici siyasətə yatırdığı resurslar addım-addım dağılır.

- Suriyada Bəşər Əsəd rejimini dəstəkləmək cəhdləri uğursuzluğa düçar olub.
- Livanda “Hizbullah”ın mövqeləri ciddi zəifləyib.
- İsrail və ABŞ-la baş vermiş “12 günlük müharibə” İranın hərbi sistemindəki zəiflikləri üzə çıxardı.

Xarici uğursuzluqlar fonunda daxili problemlər daha da kəskinləşir: inflyasiya, iqtisadi durğunluq, elektrik və su qıtlığı cəmiyyətdə narazılığı gücləndirir, ayətulla Əli Xameneinin dominantlığına əsaslanan siyasi sistem isə getdikcə daha kövrək görünür.

Bu arada Tramp Zəngəzur sazişindən öz imicini möhkəmləndirmək üçün istifadə edir, hətta potensial olaraq Nobel Sülh Mükafatına namizədliyini gündəmə gətirir. Lakin İran üçün nəticələr simvolik çərçivədən qat-qat ciddidir: dəhliz onun Bakı və Ankara üzərində təsirini azaldır, tranzit oyunundan kənarlaşdırır və daxili qeyri-sabitlik riskini artırır.

❑ Musavat.com




## Polşa “Shahed”lərə bənzər yeni kamikadze PUA istehsal etdi

**Polşa ordusu İran istehsalı olan “Shahed-136" tipli pilotsuz uçuş aparatına bənzər yeni kamikadze dronunu təqdim edib. Musavat.com “Azad İran”a istinadən xəbər verir ki, yeni sistem" PLargonia" adlanır.**

Məlumata görə, “PLargonia” əsasən hava hədəflərinə qarşı nəzərdə tutulub, lakin 20 kiloqramlıq döyüş başlığı ilə kamikadze dronu kimi də istifadə edilə bilər. Dronun uçuş məsafəsi 900 kilometr təşkil edir.

Xatırladaq ki, İran istehsalı olan “Shahed-136" dronları xüsusilə Ukrayna müharibəsində geniş şəkildə istifadə olunub və Rusiya ordusunun əsas PUA vasitələrindən biri sayılır.

❑ Musavat.com

# İran Zəngəzur dəhlizində “payçı” olacaq?

## Amerikanın qəbul etməyəcəyi təklif

**Zəngəzur dəhlizi ətrafında məkrli çevrələrin körüklədiyi intriqa bitmir. Xüsusən də cənub qonşumuz İranın radikal şovinist dairələri Ağ Evdə əldə olunan tarixi razılaşmanı hələ də sabotaj edir, hətta Pezeşkian hökumətinin rəsmi, praqmatik mövqeyinə zidd münasibət sərgiləyirlər.**



Bu arada İran parlamentinin sədri, seçkilərdə Pezeşkianın rəqibi olmuş Məhəmməd Baqir Qalibaf ikibaşlı şəkildə bəyan edib ki, İran və Türkiyə regionun sabitliyini və bütövlüyünü birgə təmin etməyə qadirdir. Ermənistan KİV-i və ekspert icması isə bu açıqlamanı Tehranın Zəngəzur dəhlizinə birgə nəzarətlə bağlı Ankaraya təklifi kimi şərh edir.

Erməni türkoloq Akop Çakryan Qalibafın açıqlamasını şərh edərkən söyləyib: “Əlbəttə, burada ABŞ-da baş verən hadisələr fonunda Zəngəzur dəhlizi nəzərdə tutulur. Görünən budur ki, Donald Trampın gəlişindən sonra ”tostlar şirinləşir" və Zəngəzur dəhlizi ilə bağlı yeni inkişaflara işarə edilir. Təbii ki, ABŞ-nin superdövlət kimi bəzi imkanları var. Türkiyə və İran da iki qüdrətli siyasi qüvvə kimi rəqabət aparır, amma bu halda da onları “ortaq düşmən”in birləşdirdiyini də qeyd etmək lazımdır. İran Zəngəzur dəhlizinə Türkiyə ilə birgə nəzarət etmək istəyir".

Onun sözlərinə görə, Zəngəzur dəhlizi sıradan bir dəhliz deyil, nəzarəti qlobal əhəmiyyət kəsb edən regional transformasiyanın kəsişmə nöqtəsidir: “Çin, ABŞ - hamı maraqlanır. Amerikalılar üçün çox vacibdir. Ancaq burada sual yaranır ki, bura bizim suveren ərazidirsə, bəs niyə Amerika Birləşmiş Ştatlarına verilir? Bunun müqabilində nə alacaqlar?” - erməni ekspert qeyd edib.

Başqa bir erməni politoloq Arman Abovyan isə deyib ki, Zəngəzur dəhlizi Azərbaycan və Türkiyənin nəzarətində olacaq. Onun fikrincə, dəhlizə avqustun 8-də Vaşinqtonda ABŞ prezidenti Donald Trampın şahidliyi ilə Bakı və İrəvan arasında imzalanmış razılaşma əsasında Türkiyə və Azərbaycan nəzarət edəcək (“Teleqraf”).

Erməni ekspert əmindir ki, dəhliz Türkiyə-Azərbaycan tandeminə təhvil verilib: “Trampın özü də Vaşinqtonda keçirilən görüşdə dəfələrlə Sünikdən (Qərbi Zəngəzur) keçən yoldan dəhliz kimi danışmışdı. Yəni ABŞ prezidenti faktiki olaraq söhbətin adi yoldan yox, Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında açılacaq dəhlizdən getdiyinə işarə eləmişdi. Ola bilsin, kimlərsə unudub ki, rəsmi olaraq ”Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) adlandırılan layihə ABŞ-a tranzit dəhlizinin inkişafı üçün müstəsna hüquqların verilməsini nəzərdə tutur. Başqa sözlə, bu, ekstraterritorial dəhlizdir".

Artıq xəbər verildiyi kimi, gələn həftə ABŞ nümayəndə heyəti Zəngəzur dəhlizi layihəsini müzakirə etmək üçün Ermənistana gələcək. Məlumatda bildirilir ki, onlar marşrutun təkcə texniki və siyasi detallarını deyil, həmçinin investisiyaların həcmini, prioritet istiqamətləri və tikinti işlərinin başlama tarixini müzakirə edəcəklər. Görüşlərin bağlı qapılar arxasında keçiriləcəyi deyilir.

Bəs bu iki erməni ekspertdən hansı haqlıdır? ABŞ imkan verərmi ki, dəhlizə İran da hansısa şəkildə nəzarət etsin?

Politoloq Xəyal Bəşirov “Yeni Müsavat”a bildirdi ki, keçmiş Dağlıq Qarabağ münaqişəsini həll etməkdə məqsədimiz həm də kənar qüvvələri regiondan çıxarmaq idi. Azərbaycan Prezidenti II Qarabağ müharibəsindən dərhal sonra 3+3 əməkdaşlıq formatını təklif etdi: “Yəni regiona aid 6 dövlətin əməkdaşlığından söhbət gedirdi. Regionla bağlı məsələlərin həllini nəzərdə tutan bir əməkdaşlıq formatı kimi düşünülürdü. Çox təəssüflər olsun ki, beş ilə yaxındır müharibə bitib, lakin Ermənistan bir sıra məsələlərlə bağlı, o cümlədən Zəngəzur dəhlizi məsələsində öz öhdəliklərini yerinə yetirməyib. Ona görə də bundan istifadə edən ayrı-ayrı qüvvələr regionda yeni problemlər yaratmağa çalışırlar. Bunlardan biri də əslində Azərbaycanın təşəbbüsü nəticəsində gündəmə oturmuş, bölgəyə rifah, sülh, inkişaf gətirəcək Zəngəzur dəhlizinə maneələrdir. Zəngəzur dəhlizinin açılmasına Ermənistan neçə ildir imkan vermir. Onlar Zəngəzur dəhlizinə dəhlizdən başqa hər formada baxırlar, özü də Zəngəzur dəhlizinin açılmasını vahiməli təhlükə sayırlar. Əslində isə Zəngəzur dəhlizinin əsas məqsədi, mahiyyəti yeni loqistika, kommunikasiya xətlərinin açılmasına, iqtisadiyyatın inkişafına şərait yaratmaqdır. Ermənilər yavaş-yavaş bunu anlamağa başlayırlar. Zəngəzur dəhlizinin istifadəyə verilməsi regionun bütün dövlətlərinə, ən çox da Ermənistana iqtisadi dividentlər gətirəcək. O dəhlizi hansı ölkənin şirkətinin işlətməsindən asılı olmayaraq dəhliz hər kəsə faydalı olacaq. İranda bəzi qüvvələr isə hələ də məsələni yanlış istiqamətə yönləndirərək tamamilə siyasiləşdirirlər, Ermənistana təsir göstərirlər”.

Politoloq hesab edir ki, 8 avqustda Vaşinqtonda əldə edilmiş razılaşmadan sonra isə İrandakı dairələr dəhlizə nəzarətlə bağlı yarışa giriblər: “Dəhlizə Türkiyə və İranın nəzarət etməsindən daha çox bu dəhlizin beynəlxalq bir yol kimi işləməsindən yana olmaq lazımdır. Azərbaycan dövləti məsələyə həm bu cür yanaşır, həm də o yolu Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirən maneəsiz istifadə edilməli olan quru yolu kimi baxır. Çünki bu yol SSRİ dövründə də mövcud olub. Amma müxtəlif qüvvələr bu yolun açılmaması üçün çalışırlar, qəbul edilməsi mümkün olmayan təkliflərlə çıxış edirlər”.

Politoloq qeyd etdi ki, hazırda Zəngəzur dəhlizinə ABŞ, Türkiyə-İran və ya başqa hansısa dövlətlərin nəzarət edəcəyi ilə bağlı razılaşma yoxdur: “42 kilometrlik həmin yol Ermənistanla ABŞ arasında imzalanmış razılaşmaya əsasən ABŞ şirkəti tərəfindən tikiləcək və həmin ərazi beynəlxalq səviyyədə Ermənistanın ərazisi kimi tanındığı üçün yolun təhlükəsizliyi təminatını Ermənistan ABŞ-la razılaşdırıb. Bu, İrana aid olan məsələ deyil, bu, Ermənistana aid olan məsələdir. ABŞ-ın da 8 avqustdan sonra İranın o yola nəzarət etməsinə razılaşması mümkün deyil. İranın bu məsələdə pozucu addımlarına ABŞ imkan verməz. İrana sual oluna bilər ki, sən öz ərazindən keçən Araz dəhlizinə nəzarəti, məsələn, Türkiyəyə və başqa bir ölkəyə verirsənmi? Azərbaycan üçün isə əsas məsələ o yolun açılması və təhlükəsizliyinə təminat verilməsidir. Hansısa qüvvələr bu məsələdə pozuculuq mövqeyindən çıxış edirlərsə, bu onların regionda sülhə yanaşmasından irəli gəlir”.

❑ Etibar SEYİDAĞA,
“Yeni Müsavat”

MÜSAVAT
N 159 (8769) 6 sentyabr 2025

# Paşinyandan böyük erməni yalanına zərbə

## Hökumət rəhbəri Ermənistanı saxta tarixdən qurtarmağa çalışır; Türkiyənin buna verəcəyi qarşılıq nə olacaq?

**Sentyabrın 4-də baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi Ermənistanın hakim partiyası Türkiyə ilə münasibətlərə birbaşa dəxli olan təqdirədici addım atıb. Hakim fraksiya qondarma “erməni soyqırımı”nı inkar etdiyinə görə cinayət məsuliyyətinin artırılması təşəbbüsünü rədd edib. Bununla da əslində tarixin hansı tərəfində olduğu barədə Ankaraya mesaj verib.**

Qeyd edək ki, Fransa belə bir qanunu çoxdan qəbul edib.

Uydurma soyqırım iddiası isə Türkiyə ilə münasibətləri normallaşdırmağa əsas maneələrdən biri sayılır. Bunu Paşinyan da bilir. Odur ki, o və komandası bacardığı qədər bu məsələnin ictimai həssaslığını azaltmağa çalışır. Bu məsələ kilsə və radikallar tərəfindən geniş manipulyasiya edilir.

Paşinyan hökuməti, konkret olaraq XİN başçısı Ararat Mirzoyan qondarma “erməni soyqırımı”nın tanınması məsələsinin artıq xarici siyasətdə prioritet olmadığını bəyan edib. Ona kimi isə Paşinyan Osmanlı imperiyasında guya 1.5 milyon erməninin qətl edilməsini şübhə altına alan açıqlama vermişdi...

Bəs Paşinyan öz xalqını saxta tarixin ağır “mirası”ndan qurtara biləcəkmi?

Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov “Yeni Müsavat”a açıqlamasında çox yaxşı sual yaradan durumun ortaya çıxdığını bildirdi: “Paşinyan hakimiyyətə gəldiyi ilk gündən erməni tarixində bu toplumun normal bir dövlətinin olması uğrunda açıq və reallıqlara söykənən bir mübarizəyə baş vurub. Bu yolda o, daxildən və xaricdən böyük basqılara məruz qalsa da, demək olar ki, öz hədəflərinə çatmaq uğrunda yorulmadan mübarizə aparır. İndi Ermənistanda, elə bizim özümüzdə də çoxları Paşinyana sual verir - necə olur ki, sən hakimiyyətə yeni gələndə ”Qarabağ Ermənistandır" deyirdin, ancaq sonradan bunun tam əksini dedin? Bir dəfə o, səhv etmirəmsə, Türkiyəyə səfəri zamanı jurnalistlərin bu şəkildəki sualına “öncə belə lazım idi” cavabını vermişdi. Onun bu sözlərinin arxasında nələr gizlənir?

Paşinyan hakimiyyətinin ilk illərində erməni toplumunun çoxluğu hələ Qarabağ reallıqlarını dərk etməkdən uzaq idi. Paşinyan çox yaxşı bilirdi ki, qarşıda Azərbaycanla böyük müharibə gözlənilir və o, həm də çox yaxşı anlayırdı ki, Ermənistan bu müharibədə biabırçı bir məğlubiyyətlə üz-üzə qalacaq. Bunu bilə-bilə belə bir müharibənin başlamasına imkan vermək nə demək idi? Bax, burada ən böyük gerçəklər ortaya çıxır. Bu müharibə baş verməli və onun nəticəsində Ermənistan ağır məğlubiyyətə düçar olmalı idi ki, Paşinyan erməni toplumunun böyük kəsiminə başa salsın ki, bu torpaqlar bizim deyil. Bu torpaqlar Azərbaycanındır və dünya birliyi bu məsələdə Azərbaycanın tərəfindədir, Fransa kimi bir dövlətin bizi dəstəkləməsi ilə bu torpaqları mənimsəmək mümkün deyil! Gerçəkdən də Paşinyanın bu taktikası işlədi. Müharibə zamanı o, hakimiyyətin başında olsa da, müharibəni uduzmağın əsas günahkarlarının köçəryanlar və sərkisyanlar olduğuna xalqını inandıra bildi. Elə bunun nəticəsi idi ki, Paşinyan ağır məğlubiyyətli müharibədən dərhal sonra keçirdiyi seçkilərdə böyük səs çoxluğu ilə qalib gəldi".



Sabiq nazir onu da qeyd etdi ki, Paşinyan Ermənistanda normal bir dövlət qurmaq uğrunda mücadilə edir və o bu yolda ermənilərin Qarabağ iddialarından da, qondarma “erməni soyqırımı”ndan da vaz keçməyin vacibliyini vaxtında dərk edib: “Son zamanlarda Paşinyanın Azərbaycan Prezidenti ilə əlaqələr yaratmaq uğrundakı çabaları, onun Türkiyəyə səfəri kimi addımları sıradan bir gedişlər deyil. Bu addımların nəticəsidir ki, bu ilin avqust ayının 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişi paraflandı.

Paşinyan “Qarabağ Azərbaycandır” dediyi kimi, “Erməni soyqırımı qondarmadır” da dedi. Bununla da “erməni soyqırımı”nı illər uzunu Türkiyə təzyiq kimi istifadə edənlərin üzünə tutarlı şapalaq vurdu.

İndi əsas məsələ Cənubi Qafqazı yüz illər boyu münaqişə ocağına çevirməklə burada ağalıq etmək istəyən ayını buradan qovub çıxartmaq və bu regionda sülhü, əmin-amanlığı bərpa etməkdir".

Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyası İdarə Heyətinin üzvü, siyasi şərhçi Əli Zülfüqaroğlu “Yeni Müsavat”a bildirdi ki, Paşinyan kilsə və lobbinin Ermənistanın idarəçiliyindən uzaqlaşdırılmasına çalışır: “Bu isə yalnız Ermənistan dövlətinin milli idelogiyasının dəyişməsindən sonra mümkün ola bilər. Ermənistanın idelogiyasını formalaşdıran və həyata keçirilməsinə çalışan qüvvələr kilsə və lobbidir. Əgər, Ermənistanın milli ideologiyası dəyişəcəksə, o zaman kilsə və lobbinin cəmiyyətə və dövlətə təsir imkanları minimuma enəcək”.

Ə.Zülfüqaroğlu əlavə edib ki, bu, baş verməyəcəyi halda isə, yeni qonşularına ərazi iddialarını özündə əks etdirən və Ermənistanı fəlakətə sürükləyən “Böyük Ermənistan” ideologiyası, eyni zamanda saxta erməni soyqırımı iddiaları əsas təşkil edəcəksə, Paşinyan hakimiyyətinin və onun formalaşdırmağa çalışdığı “real Ermənistan” konsepsiyasının həyata keçirilməsi mümkünsüz olacaq: “Beləliklə də Ermənistan dövlətinin mövcudluğu sual altında qalmaqda davam edəcək və müxtəlif dövlətlərin əlində alət funksiyası rolunu oynayacaq. Paşinyan da anlayır ki, bu xəstə ideologiya Ermənistana nəinki uğur gətirmədi, əksinə onu fəlakətə sürükləməklə yanaşı, inkişafına və bir dövlət kimi formalaşmasına mane oldu. Buna görə də, öncə kilsə və lobbinin Ermənistan idarəçiliyindən uzaqlaşdırılması şərtdir. Bunun üçün də ilk növbədə hüquqi addımlar atılmalıdır. Yeni Ermənistan konstitusiyasında kilsə və lobbiyə verilən müstəsna hüquqlar aradan qaldırılmalıdır. Buna görə də, konstitusiyanın dəyişməsi vacibdir. Bununla Ermənistan utopik və həyata keçirilməsi mümkün olmayan xəstə ideologiyadan qurtulmaqla, qonşularla normal münasibət qura və beləliklə də dünyaya açıla, inkişaf edə bilər”.

Siyasi şərhçi hesab edir ki, Türkiyə ilə münasibətləri normallaşdırmaqla Avropaya açılmağı hədəfləyən İrəvan anlayır ki, Azərbaycanla münasibəti normallaşdırmadan və qondarma erməni soyqırımı iddialarından əl çəkmədən bu mümkün deyil: “Yəni, Türkiyə ilə mnasibətlərin normallaşdırılmaması Ermənistanın Rusiyadan iqtisadi asılılığının davam etməsi deməkdir. Bu baxımdan düşünürəm ki, Paşinyan saxta ideologiya və soyqırımı iddialarından qurtulmaqda maraqlı olacaq və prinsipiallıq nümayiş etdirəcək. Təbii ki, kilsə, lobbi, revanşistlər və onlara dəstək verən üçüncü qüvvələr buna qarşı fəaliyyət göstərməyə və qarışıqlıq yaratmaqla Paşinyanı devirməyə cəhd edəcəklər. Amma düşünürəm ki, Paşinyan cəsarətli olarsa və hakimiyyətdə qalmağı bacararsa, Ermənistanın normallaşmasına nail ola bilər”.

❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”

---

# Qraçya Sarqsyan: “Büdcəmiz Azərbaycanın büdcəsinin yarısına belə çatmır”

**Azərbaycan və Ermənistanın hərbi xərcləri müqayisədə ciddi fərqlilik göstərir.**

Musavat.com xəbər verir ki, Ermənistanın müdafiə nazirinin müavini Qraçya Sarqsyan açıqlamasında bildirib ki, Ermənistanın müdafiə xərcləri heç vaxt Azərbaycanın hərbi büdcəsi səviyyəsinə çatmayacaq.

Onun sözlərinə görə, 2026-cı il üçün Ermənistan Müdafiə Nazirliyinə ayrılacaq məbləğin azaldılıb-azaldılmayacağı hələ aydın deyil. Hazırda 2025-ci il üçün Ermənistanın hərbi büdcəsi 1,7 milyard ABŞ dolları təşkil edir. Halbuki Azərbaycanın cari ildə müdafiə və milli təhlükəsizlik üçün xərcləri təxminən 5 milyard dollardır.

Bu fərq regionda hərbi balans və strategiyanın mühüm göstəricisi kimi qiymətləndirilir.

❑ Musavat.com

# Erməni iqtisadçı: “Tramp yolu əvəzində Ermənistan dənizə çıxış tələb edə bilərdi”

**“Tramp yolu” layihəsini Cənubi Qafqaz regionunda yeni təhlükəsizlik arxitekturasına yönəlmiş bir nailiyyət hesab etmək olar.**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu fikri İrəvanda keçirilən “Ermənistan - AİI. Birlikdə irəli” forumunda iqtisad elmləri doktoru, “Alternativa” tədqiqat mərkəzinin rəhbəri Tatul Manaseryan bildirib.

Onun sözlərinə görə, Ermənistan tərəfi bu məsələ üzərində daha intensiv işləyə bilərdi və nəticələri Azərbaycanla müqayisə edəndə fərq aydın görünür: “İmzalanmadan 2-3 gün əvvəl Azərbaycan tərəfi ABŞ-la müxtəlif iqtisadi əməkdaşlıq sahələrində müqavilələr bağlaya bildi. Ermənistan isə NATO-da mühüm, hətta həlledici rol oynayan ölkə qarşısında dənizə çıxış məsələsini qaldıra bilərdi”, - deyə Manaseryan xatırladıb və əlavə edib ki, Türkiyə və Ermənistan müvafiq beynəlxalq müqavilələrin iştirakçılarıdır.

Yolun Ermənistana gətirəcəyi faydaya toxunan iqtisadçı qeyd edib ki, dövlət qurumları konkret hesablamalar aparmalı və cəmiyyətə təqdim etməlidirlər. “Hazırda mən bunu görmürəm”, - deyə Tatul Manaseryan iddia edib.

❑ Musavat.com



# İrəvanda iğtişaş: Polis “bayraq” açan Qarabağ ermənisini küçədə sürüyüb

**İrəvanda diqqətçəkən və bir o qədər də manidar hadisə yaşanıb. Musavat.com xəbər verir ki, bir neçə gün əvvəl şəhərin mərkəzi meydanında yaşlı bir Qarabağ ermənisi qondarma “artsax bayrağı” adlanan əski parçasını qaldırmaq istəyib. Lakin polis dərhal müdaxilə edərək buna imkan verməyib və həmin şəxsi meydandan zorla uzaqlaşdırıb.**

Hadisənin görüntüləri sosial şəbəkələrdə yayılıb və geniş müzakirələrə səbəb olub. Kadrlarda yaşlı şəxsin əlində “bayraq”la polis tərəfindən sürükləndiyi açıq görünür.

Bir vaxtlar Ermənistan küçələrində hər yeri həmin bayraqla bəzəyən, “artsax hərəkatı” deyə özünü yırtan dairələr indi onun qaldırılmasına belə dözümlü yanaşmır. Bu isə son dövrlərdə Azərbaycanla Ermənistan arasında əldə olunmuş razılaşma proseslərinin fonunda diqqətçəkici bir siqnal kimi dəyərləndirilir.

Ekspertlər qeyd edirlər ki, Ermənistan polisinin “artsax bayrağı” adlandırılan əski parçasının meydanda açmağa imkan verməməsi, Baş nazir Nikol Paşinyanın özü tərəfindən də dəfələrlə vurğulanan “artsax məsələsinin bitməsi” fikrinin reallıqda tətbiqinə işarədir.

Hadisə həm Ermənistanın daxili siyasi dinamikalarının dəyişdiyini, həm də Azərbaycanın bölgədə formalaşdırdığı yeni reallığın artıq İrəvanın mərkəzində belə özünü göstərdiyini açıq şəkildə nümayiş etdirir.

❑ Musavat.com



# Xala xətri

Zamin HACI
zaminhaci@gmail.com

**Uşağı döyüb, işgəncə veriblər, deyilənə görə, bunu onu himayəsində saxlayan qadın törədibdir. Və xalanı polis saxlamışdır. (Cümlənin çoxmənalı, çoxqatlı alınmasına fikir verin. Buna görə ana dilimizi sevirəm).**

Lakin mən xalanın günahına çox da inanmıram. Yəqin onu hansısa AXC-Müsavat üzvü, ya da xaricdən maliyyələşən jurnalist-bloqer tör-töküntüləri şərləməyə cəhd göstərir. Niyə belə əminliklə yazıram? Çünki xalanın fotosunu dərc etmişdilər və bu üzü nurlu insan başdan-ayağa çadraya, dini geyimə bürünmüşdü.

Sözgəlişi, vətəndaş haqda burada hər dəfə "xala" yazmaqda hansısa qəsdi-qərəzlik güdmürəm, uşağın dost-doğma xalasıdır. Yoxsa bəzi qərəzli oxucular mənim də söz oyunbazlığı ilə məşğul olmağa girişdiyimi zənn edə bilərlər. Qətiyyən. Bu xala siz düşünən xalalardan deyil.

Maraqlıdır ki, bizim folklorda xala obrazı bibi obrazına nisbətən daha çox diqqət mərkəzinə çəkilir. Bunu ata sözü və məsəllərimiz də təsdiq edir: "Xala xətrin qalmasın", "Xala evinə dadanan, ər evində dayanmaz", "Xalam bildi - aləm bildi", "Xala, xala, təndiri qala, aşı bişirib, nimçəni yala", "Xalamın ... olsaydı, ona dayı deyərdim", "Xalası göyçək" və sairə. Bibi isə ciddi senzura altındadır. Milli folklorumuz bibi temasında israrla susur. Görəsən, bunun elmi kökləri nədir? Təklif edirəm, AMEA nəzdindəki boş-bekar institutların xalaları... üzr istəyirəm, əməkdaşları bu temada fəlsəfə üzrə namizədlik dissertasiyası işləməyə başlasınlar.

Qayıdaq xalamıza. Bəli, uşağa işgəncə iddiasıyla tutulan xala nəinki dini geyimdə idi, üstəlik, məhəllə sakinləri arasında "həcixanım" adıyla falçılıq edirmiş. Bu da bizim daha bir müqəddəs tərəfimizdir. Falçılıq, pirləri ziyarət, cadu, qulyabanı, mumiya və sairə elmlər xalqımız arasında çox populyardır, hətta vaxtilə telekanalizasiyada verilişləri olurdu, indi xəbərsizəm.

İndi mən sizdən soruşuram: çadralı bir insan başqasına işgəncə verərmi? Qətiyyən. Mümkün deyildir. Amma həmin zənən mini geyimdə, dekoltedə, hətta əlim qurusun bu sözü yazdığım yerdə - bikinidə olsaydı, biz onun hər cür pisliyinə inanmalıydıq. Çünki İranın, Səudiyyənin, Yəmənin, Əfqanıstanın və sairə gözəl, cənnət məmləkətlərin təcrübəsi göstərir ki, zənənlər dini geyimdə yaşayarsa, orada işgəncənin kökü kəsilir. Açıq-saçıq geyinmək özü-özlüyündə bir işgəncə növüdür.

Yeri gəlmişkən, Qurbanolduğumuz da örtüklü torpaqlara yuxarıdan yaxşı baxır, himayəsində saxlayır. Bunu özümdən uydurmuram, beş-on il qabaq iranlı üləmalardan hansısa fətva vermişdi ki, əgər zənənlər gödək don geyinib kəkilləri açıq gəzirsə, Allah-təala orada zəlzələ törədir. Hərçənd, niyə İranda tez-tez zəlzələ olur, bunu anlamaqda çətinlik çəkirəm. Yəqin bilmədiyimiz nələrsə var.

Təzəlikcə bu dini geyim teması məktəblərimiz baxımından müzakirə olunmuşdu. Hardasa oxudum, bir deputat təxminən belə demişdi ki, yaxası-başı açıq geyimlərlə yuxarı siniflərə dərsə gedən müəllimlər həddi-buluğa çatmış gənclərin psixikasına təsir edir. Yəni, heç olmazsa ibtidai sinifə belə gedin.

Amma bu da şübhəli yanaşmadır, çünki azyaşlı şagirdlərə yarıaçıq, dekolte geyimlər daha psixoloji təsir edə bilər, onlara süddən təzəcə kəsildiklərini xatırladar. Ondan sonra gəl "Tutu, topu tut"... Nəsə, mövzunun zibili çıxmamış dayanıram.

Tək hicab, çadra deyil. Dinin həyatımızda rolu yüksəkdir. Məsələn, təzəlikcə iki futbolçumuz naməhrəm qadın hakimlə əl görüşmədilər. Məhz bu cür yaşadıqları üçün komanda çempionlar liqasına çıxıbdır! Yad qadına toxunan anda insan günaha batır, dini baxımdan ofsayda düşür, cəhənnəmdə avtoqol vurur. Təsəvvür edin, metromuz necə günah oylağıdır! Nırç, nırç...

Mən fikir verdim, Çində son tədbir zamanı bəzi müsəlman dövlət başçılarının xanımları da naməhrəmlərlə əl görüşmürdü. Güman edirəm, onlar bizim futbolçuların oyunlarını izləyirlər.



# Putin Azərbaycana heyət göndərir - Kremlin şərti var, Bakı isə...

## Rusiya lideri siyasi böhranı etiraf etsə də, addım atmır və ilk jesti ölkəmizdən gözləyir; rəsmi Moskvadan tələb dolu son bəyanatlar isə onun əsl niyyətini ortaya qoydu

**Bakı-Moskva münasibətlərində ikincinin günahı üzündən gərginlik qalmaqdadır. Azərbaycanın əlaqələrin normallaşması üçün ədalətli şərti çoxdan məlumdur. Amma gəl ki, Rusiya bizimlə şərtlə danışmaq istəyir. Bu ölkənin Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarovanın "Azərbaycanda həbsdə olan 13 vətəndaşımızın azadlığa buraxılması münasibətlərin normallaşması yönündə mühüm addım ola bilər" sözləri buna bariz sübutdur.**

Ardınca da Rusiya baş nazirinin müavini Aleksey Overçuk ümid etdiyini bildirib ki, "Azərbaycan rəhbərliyi həbsdəki Rusiya vətəndaşları ilə bağlı vəziyyətə anlayışla yanaşacaq".

Bu arada isə Rusiya nümayəndə heyətinin tezliklə Azərbaycana səfər edəcəyi haqda məlumat yayılıb. Səfərin məqsədi sentyabr-oktyabr aylarında ölkəmizdə keçiriləcək III MDB Oyunlarında iştirak etməkdir. Bunu Rusiya idman naziri Mixail Deqtyarev Vladivostokda keçirilən Şərq İqtisadi Forumunun "İdman diplomatiyası: yeni çağırışlar və imkanlar" sessiyasında bildirib. Nazir əlavə edib ki, Azərbaycan tərəfi, xüsusilə də gənclər və idman naziri Fərid Qayıbov onu da şəxsi qaydada dəvət edib, lakin səfərlə bağlı qərarını ayrıca verəcək.

Beləcə, rəsmi Moskva özünü elə aparmağa çalışır ki, sanki vəziyyətin hazırkı kritik səviyyəyə çatmasında baiskar məhz Azərbaycandır. Halbuki Bakı sırf cavab tədbirlərinə əl ataraq, özünü müdafiə etmək məcburiyyətində qalıb.

O zaman barışıq üçün niyə də Azərbaycan ilk addımı atmalıdır? Rusiya mülki təyyarəmizi vurmasına görə məsuliyyəti nə vaxt öz üzərinə götürəcək?

Başqa yandan, Azərbaycan "banan ölkəsi" deyil. Bu xüsusda saxlanılanların məhkəmədək sərbəst buraxılması hüquqi baxımdan necə mümkün ola bilər?

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə "Yeni Müsavat"ın suallarını cavablandırarkən bildirdi ki, istintaq yekunlaşmayıb və onların sərbəst buraxılması mümkün deyil. Hüquq müdafiəçisi qeyd etdi ki, həmin şəxslərin azadlığa buraxılmasına məhkəmə qərar verə bilər, ona görə də Rusiya gözləməlidir: "Rusiyada OMON vətəndaşlarımızı döyüb öldürüb. Halbuki onları saxlayıb istintaqa cəlb etmək olardı. Bu vəhşiliyi etdiklərinə görə üzr istəməyiblər. Təyyarəmizi vurublar, bu məsələdə də üzrxahlıq yoxdur. Onlardan fərqli olaraq, Azərbaycanda saxlanılan həmin şəxslər döyülüb işgəncəyə məruz qalmayıblar, sadəcə, istintaq altındadırlar. Yəni fərqimiz bundan ibarətdir. Rusiya həmvətənlərimizi öldürüb, OMON-un törətdiyi qətllərə görə nə hansısa xüsusi təyinatlı məsuliyyətə cəlb edilib, nə də üzr istəyirlər. Ona görə də Bakıda saxlanılanların gündəmə gətirilməsi, şərt irəli sürülməsi Rusiyanın növbəti həyasızlığıdır".

Politoloq Elxan Şahinoğlunun sözlərinə görə, Putin Pekində mətbuat konfransında münasibətlərdə ciddi suallarən olduğunu ilk dəfə etiraf edib. Onun fikrincə, Putinin bu suallar barədə detallı danışmadan "Rusiya və Azərbaycan arasında fundamental münasibətlər və bunun inkişafı üçün qarşılıqlı maraq son nəticədə hər şeyi öz yerinə qoyacaq" cümləsi ikibaşlıdır. Analitik hesab edir ki, Rusiya prezidenti sanki bununla iki ölkə arasında illər uzunu formalaşan isti münasibətlərə eyham vurur, o biri tərəfdən "qarşılıqlı maraq son nəticədə hər şeyi öz yerinə qoyacaq" cümləsiylə münsibətlərdəki gərginliyə görə məsuliyyətdən uzaqlaşmağa çalışır.

E.Şahinoğlunun qənaətinə əsasən, münasibətlər Putinin təbirincə desək, öz-özünə yoluna qoyula bilməz: "Putin raketlə vurulan təyyarə olayına aydınlıq gətirməlidir. O bu məsələni araşdırmağı lazım bilmirsə, siyasi münasibətlər necə əvvəlki axarına qayıda bilər? Birinci addımı Putin atmalıdır. Ancaq o bu addımı atmağa hələ hazır deyil, əks halda azərbaycanlı həmkarı İlham Əliyevlə Pekində salamlaşmadan əlavə müzakirə aparmağı da lazım bilərdi. Putinin açıqlamalarından bir gün sonra Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın brifinqdə "Azərbaycanda həbsdə olan 13 Rusiya vətəndaşının azadlığa buraxılması Moskva ilə Bakı arasında münasibətlərin normallaşması istiqamətində mühüm addım ola bilər" söyləməsi Kreml sahibinin əsl niyyətini ortaya qoyub. Sən demə, Putin İlham Əliyevin ilk addım atmasını gözləyir".

Siyasi ekspert Məhəmməd Əsədullazadə isə Rusiya-Azərbaycan əlaqələrinin normallaşmasını gözləmir. "Rusiya-Azərbaycan əlaqələrinin normallaşması istiqamətində ilk növbədə rəsmi Kreml AZAL təyyarəsinin vurulması ilə bağlı rəsmi üzr istəməli və təzminat ödəməlidir. Çində prezident İlham Əliyevlə Putinin ayaqüstü salamlaşması təsadüfi idi. Bu təsadüfi və ayaqüstü əl sıxışmaqdan böyük nəticələr gözləməyə dəyməz", - deyə ekspert düşünür.

Onun fikrincə, təbii ki, Azərbaycan Rusiya ilə münasibətlərin gərginləşməsində maraqlı deyil: "Azərbaycanla Rusiya qonşu ölkələrdir və tərəflər arasında bir çox sahələrdə əməkdaşlıq yüksək səviyyədə olub. Amma Rusiya Azərbaycanın müstəqil siyasət aparmasını qəbul etmir və Cənubi Qafqazda yeni geosiyasi nizamı narahatlıqla qarşılayır. Rusiyanın AZAL təyyarəsinin vurulmasının üstündən keçərək, əvəzində bir neçə rusun həbsdən azad olunmasını tələb etmək isə siyasi etika qaydalarına ziddir. Rusiya özü Azərbaycanla fundamental problemlər yaradıb. Bunu aradan qaldırmaq üçün ciddi addımlar atmalıdır. Göründüyü kimi, Rusiyanın anti-Azərbaycan siyasəti öz əleyhinə çevrilib. Putin mətbuat konfransında siyasi böhranı etiraf etsə də, konkret addımlar atmır".

M.Əsədullazadənin sözlərinə görə, ümumiyyətlə, Rusiyanın yaxın perspektivdə AZAL təyyarəsi ilə bağlı Azərbaycandan rəsmi üzr istəməsi və təzminat ödəməsi gözlənilmir: "Rusiya Ukraynada ağır nəticələrlə üzləşdiyi fonunda Azərbaycanla siyasi böhranın aradan qaldırılması üçün addımlar atması mümkündür. Azərbaycan mövqeyini kifayət qədər gücləndirib. Azərbaycan Cənubi Qafqazda geri dönüşü olmayan yeni geosiyasi reallıqlar yaradıb. Azərbaycan Orta Dəhlizin səmərəliliyinin artırılması və nəqliyyat qovşağı kimi Avropa İttifaqının, ABŞ və Çinin dəstəyini alıb. Belə olan təqdirdə Rusiyanın Azərbaycana təzyiqləri heç bir nəticə verməyəcək".

"Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat katibinin cari ilin iyul ayında Azərbaycanda 13 Rusiya vətəndaşının həbs olunmasının Azərbaycan-Rusiya münasibətlərinin pisləşməsi səbəbi kimi təqdim etməsi və onların azadlığa buraxılmasının münasibətlərin yaxşılaşması üçün şərt kimi irəli sürməsi yanlışdır".

XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib. O qeyd edib ki, Azərbaycan-Rusiya münasibətlərinin gərginləşməsinə məhz AZAL təyyarəsinin vurulması nəticəsində qəzaya uğraması və bundan sonra Rusiya rəsmiləri tərəfindən göstərilən davranışın səbəb olduğu məlumdur: "Bununla yanaşı, Rusiyada etnik mənsubiyyətə görə azərbaycanlıların təqib olunması, Yekaterinburq şəhərində azərbaycanlıların döyülərək qətlə yetirilməsi münasibətlərdə əlavə gərginlik yaradıb. Bununla yanaşı, Rusiyanın müxtəlif dövlət qurumlarının Azərbaycana qarşı fəaliyyəti münasibətlərə mənfi təsir edən amillər sırasındadır".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 159 (8769) 6 sentyabr 2025

# Azərbaycana daha bir böhtan - Ukraynada hərbi təyyarəmiz...

## Rus mediası Bakının Kiyevə silah verdiyi barədə saxta xəbərləri yaymağa davam edir; bu dəfə guya qırıcımızı "görüblər"

**Rusiya teleqram kanalları Azərbaycana qarşı həyasız ittihamları davam etdirir. "Yeni Müsavat"ın xəbərinə görə, "Voyevoda veşaet" Telegram kanalı Ukrayna səmasında Azərbaycan Hərbi Hava Qüvvələrinə aid "MiQ-29" təyyarələrinin olduğunu iddia edib. Sitat: "Azərbaycan Hərbi Hava Qüvvələrinin rəngindədir və artıq düşmənin Hərbi Hava Qüvvələrinin tanınma nişanlarına malikdir. Tez tanınma bayraqları da var".**

Hətta bununla bağlı heç bir isbatı olmayan bir foto da yayımlanıb. Erməni mediası da bu yalan xəbəri tirajlayıb. Həmin dezinformasiyada ardınca qeyd olunur ki, "ikinci fotoda 404-cü (Ukrayna) Hərbi Hava Qüvvələrinin 85-ci bombardmançı aviasiya alayından alınmış Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus "MiQ-29" təyyarəsi əks olunub. Alay 2003-cü ildə ləğv edildi. Lvov Aviasiya Təmiri Zavodunda (Lvov) Azərbaycan MiQ-ləri...", - deyə vurğulanır.

Daha əvvəl də Azərbaycan Ukraynaya hərbi yardım etməkdə ittiham olunub. Amma heç bir fakta söykənməyib. Çünki bu ölkəyə humanitar yardım göndəririk. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycan Ukraynanın silahlandırılmasında iştirak etmir. Ancaq Rusiya mediası Azərbaycana böhtan yağdırmaqdan əl çəkmir. Hətta Kreml liderinin son çıxışı da rus media resurslarının ritorikasını dəyişməyib. Azərbaycanın Ukraynaya silah verməsinə heç bir ehtiyac yoxdur. Çünki biz münaqişə tərəfi deyilik. Avropa ölkələri və ABŞ bu işi həyata keçirir.

Təbii ki, Rusiyanın Ukraynada qalib gəlməsi Azərbaycanın təhlükəsizlik maraqlarına ziddir. Amma hərbi dəstək də vermirik, sanksiyalara qoşulmuruq. Bununla belə Rusiyanın media resursları ölkəmizdən əl çəkmir. Bu dəfə də guya qırıcı təyyarəmizin Ukrayna səmasında olduğunu "görüblər".

Yada salaq ki, daha əvvəl Caliber.Az Azərbaycanın Ukraynaya qarşı silah embarqosunu ləğv edə biləcəyini yazmışdı. Bildirilmişdi ki, Rusiya Azərbaycanın maraqlarına qarşı təcavüzkar siyasətini davam etdirərsə, rəsmi Bakı Ukraynaya öz arsenalında olan silah-sursat tədarükünə qoyulan embarqonun ləğv edilməsi məsələsini nəzərdən keçirməyə başlayacaq.

Amma rəsmi Bakının hər hansı açıqlaması və ya qərarı yoxdur. Bu, medianın yaydığı xəbərdir. Rusiya rəsmiləri də bu informasiyaya reaksiya verməmişdi. Lakin Azərbaycanın rəsmi bəyanatı yoxdursa, Rusiyanın narahatlığı məntiqsizdir. Hər nə qədər Moskva bizə qarşı addımlarını davam etdirsə də, Azərbaycan dost Ukraynaya silah-sursat tədarük etmir.

Əlbəttə ki, dövlətimiz Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir, humanitar yardımlar göndərir, prezident jurnalist Qordonun sualına cavabında işğalla barışmamağı tövsiyə edib, buna rəğmən silahlanmada iştirak etmirik, rus mediasının növbəti yalanıdır.

Bəs bu xəbərləri tirajlamaqda məqsəd nədir?

Siyasi ekspert Züriyə Qarayeva "Yeni Müsavat"a bildirib ki, Rusiya propoqandası yalan istehsal etməklə məşğuldur və məqsəd manipulyasiyaya yol verməkdir. Onun sözlərinə görə, ictimai rəyə təsir etmək niyyəti ilə belə saxta informasiyalar servis olunur. Z.Qarayeva "könüllülər koalisiyası" tərəfindən Ukraynaya silahlar verildiyini xatırladaraq, Azərbaycanın burada yer almadığını vurğulayıb: "Rusiya, təəssüf ki, bizim bu siyasətimizi dəyərləndirmədi. Azərbaycan nə sanksiyalara dəstək verib, nə koalisiyada yer alıb. Əksinə, müharibənin başlanmasına 2 gün qalmış strateji müttəfiqliyə dair bəyannamə imzalanıb.



Amma bu gün Rusiya Ukraynada Azərbaycanın enerji obyektlərinə hücum edir, səfirliyimizin yaxınlığına raket atır, binasına zərər vurur, qaz nəql edilən stansiyaya zərbə endirir. Bu da müttəfiqliyə uyğun olmayan addımlardır".

Z.Qarayeva söyləyib ki, Azərbaycan Ukraynaya humanitar dəstəyi artırır, ukraynalı uşaqların psixoloji reabilitasiyası üçün ölkəmizdə onlara şərait yaradır, gələcəkdə də dağıdılmış şəhərlərin bərpasında iştirak edə bilər, amma Kiyevə silah tədarükü, qırıcı göndərmək absurd ittihamlardır: "Azərbaycan Rusiyadan fərqli olaraq işğala məruz qalan ölkənin yanındadır. Rusiya isə zamanında işğalçı Ermənistana pulsuz silahlar verib, ordusu işğalda iştirak edib, ikinci Qarabağ müharibəsində belə yenə hərbi dəstəyi davam etdirib. Buna sübut Şuşada aşkarlanan Rusiyaya məxsus və satışı qadağan edilən "İsgəndər" raketinin qalıqlarıdır. Azərbaycan bununla bağlı Rusiyadan izahat tələb edib, amma qarşı tərəf guya istintaq getdiyini bəhanə edərək indiyə qədər tutarlı cavab verməyib. Nə cavab verəcək, hansı üzlə verəcək? Necə ki, təyyarəmizi vurdular, hələ də cavab yoxdur, eləcə də Ermənistana ötürülən "İsgəndər" raketi ilə bağlı araşdırma aparmırlar. Rusiya mediası bu həqiqətlərə görə ayıbına kor olmaq əvəzinə Azərbaycanı Ukranyaya hərbi yardım göstərməklə ittiham etməklə həyasızlığını ortaya qoyur".

Qeyd edək ki, Prezident İlham Əliyevin bu il avqustun 11-də imzaladığı Sərəncama uyğun olaraq göndərilən humanitar yardım Ukraynaya çatıb və ölkənin Energetika Nazirliyinin rəsmilərinə təhvil verilib. Humanitar yardıma elektrik avadanlıqları daxildir.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Erməni spikerdən Bakıya qarşı həyasızlıq

## Simonyan Azərbaycanda məhkəməsi gedən hərbi canilərin məsələsini bu türk ölkəsində niyə qaldırıb? - reaksiya



**Sentyabrın 4-də Qırğızıstanda rəsmi səfərdə olan Ermənistan parlamentinin sədri Alen Simonyanın rəhbərlik etdiyi nümayəndə heyəti Qırğız Respublikasında səfərdə olub. Parlamentinin sədri Nurlanbek Turqunbek Uulu ilə görüşüb. İki ölkənin parlament spikerlərinin şəxsi söhbətindən sonra nümayəndə heyətlərinin geniş tərkibdə görüşü keçirilib.**

Erməni mediası yazır ki, görüş zamanı Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olması prosesinə xüsusi toxunulub. Bu kontekstdə Qırğızıstanın Vaşinqtonda qəbul edilən bəyannaməni və paraflanmış sülh sazişini alqışladığını qeyd edən Turgunbek Uulu, bunun bölgədə uzunmüddətli sülhün bərqərar olması baxımından əhəmiyyətli təsir göstərəcəyini bildirib. Simonyan isə həmkarının diqqətini həm də onun təbirincə desək, "Azərbaycanda qanunsuz saxlanılan (?!) hərbi əsirlər və itkin düşən hərbçilərlə bağlı məsələyə" yönəldib.

Görəsən erməni spiker hansı əsirlərdən dəm vurur? Azərbaycana qarşı ağır cinayətlərdə ittiham olunan erməniler nə vaxtdan "hərbi əsir" oldular? Ümumiyyətlə, bu barədə qırğız spikerlə müzakirə aparmaqda məqsəd nədir? Hansı haqla o, Azərbaycandakı məhkəmə prosesini şübhə altına alır?

Başqa yandan, Paşinyan özü böyük sülh prosesini zədələməmək üçün bu mövzuda ehtiyatla danışdığı halda Simonyanın sırtıqlığının adı nədir? Axı hər şey qıraığa, spikerin iddiaları Paşinyanın Ağ Evdə imza atdığı üçlü Birgə Bəyannaməyə də ziddir. Məsələn, həmin sənədin 4-cü bəndində deyilir: "Tərəflər bir-birinin daxili işlərinə müdaxilədən çəkinəcəklər".

Professor Qabil Hüseynli erməni spikerin çıxışını həyasızlıq kimi qiymətləndirir. Onun fikrincə, Simonyan sülh prosesinə zərər vuran mövqe sərgiləməməli idi və Paşinyanın siyasi kursuna zidd addım atıb: "Bu mövzunun Qırğızıstanda gündəmə gətirilməsi də qəribədir. Görünür ki, hərbi canilərin məhkəməsi ilə bağlı danışmağa daha yaxşı platforma tapa bilmir. Ancaq onun fikirləri reallığı dəyişə bilməz. Azərbaycan şəffaf məhkəmə prosesi aparır və sübutlar təqdim olunur. Hətta Ermənistana təklif edildi ki, istintaq qrupu göndərə bilər. Dünya şahiddir ki, bu cinayətkarlar hansı vəhşiliklər ediblər, necə tapşırıqlar veriblər. Eyni zamanda, Ermənistandan idarə olunduqlarını etiraf edirlər. Hətta bu günlərdə Qarabağda hansı ermənistanlı hərbçilərin xüsusi qəddarlıqlar etdiyi barədə adlar açıqlandı. Deməli, Simonyan bu sübutlar ortaya çıxmasından, ölkəsinin işğalçı, faşist mahiyyətinin ifşasından narahatdır".

Q.Hüseynlinin fikrincə, sülh sənədi paraflandıqdan sonra Ermənistan məhkəmə prosesində iştirak üçün nümayəndələr də göndərə bilər ki, gedişatı izləsinlər: "Bu məhkəmə iclasları açıq, medianın iştirakı ilə keçirilir. Onlar özləri törətdiyi əməlləri etiraf edirlər. Simonyan hansı əsasla onları "hərbi əsir" adlandıra bilər? Bu adamlar Azərbaycan ərazisində saxlanılıblar. Onların əksəriyyəti Qarabağda doğulublar. Ona görə də Araik və digər hərbi canilərin mühakiməsi öz daxili işimizdir. Ermənistanın buna qarışmağa haqqı çatmır. Sadəcə, Simonyan kimilər harada gəldi bu məsələni qaldıraraq diqqət cəlb etməyə çalışır, siyasi don geyindirmək məqsədi güdür. Halbuki burada heç bir siyasi motiv yoxdur. Ortada azərbaycanlıların qətlə yetirilməsi, soyqırımı, etnik təmizləməyə məruz qalmağımıza dair faktlar var. Ermənistan təşvişə düşür ki, keçmiş xunta rejiminin rəhbərliyi onları ifşa edir. Bu da Ermənistanın xislətini ortaya qoyur".

Professir əmindir ki, bütün hallarda həmin cinayətkarlara hökm oxunacaq, layiqli cəzalarını alacaqlar: "Bu adamlar dövlət içində qondarma dövlət qurmaq istəyiblər, Ermənistan dövləti tərəfindən də 30 ildən artıq maliyyələşdiriliblər, silahlandırılıblar. Bu faktlar bizə çoxdan məlum idi, indi isə məhkəmədə sübutlarla təqdim edilir. Həmçinin Araik Gəncəni bombalamaq əmrinin ona Ermənistandan verildiyini təsdiqləyib. Bu da Ermənistan dövlətinin bizə qarşı törətdiyi hərbi cinayəti etirafıdır. O səbəbdən, erməni spiker təşvişə düşüb".

Xatırladaq ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi davam etdirilir. Sentyabrın 4-də keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs Madat Babayanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələr və ona aid elan olunan digər sənədlər səsləndirilib. O, ibtidai istintaqa ifadəsində bildirib ki, 1988-ci ildə Xankəndi şəhərində ermənilər silahlı dəstələr yaradaraq müxtəlif ərazilərdə azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlar təşkil etməyə başlayıblar. Bu da faktlar özü hər şeyi ifadə edir...

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Azərbaycanda quş əti ilə özünütəminat səviyyəsi kəskin azaldı: Səbəb nədir?

**Azərbaycanda ət və ət məhsulları ilə özünütəminetmə səviyyəsi azalıb. Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, 2024-cü ildə Azərbaycanda bütün növ ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 83,4 faiz təşkil edib. Bu isə o deməkdir ki, göstərici 2023-cü illə müqayisədə 1.9 faiz bəndi azalıb.**

Ayrı-ayrı ət növləri üzrə təminat dinamikasına nəzər yetirdikdə aydın olur ki, ötən il ölkənin mal əti və ət məhsulları üzrə özünütəminat səviyyəsi 88,5 faiz təşkil edib. Bu isə əvvəlki ilin nəticəsindən (88,4 faiz) cüzi - 0,1 faiz bəndi çoxdur.

Qoyun və keçi əti üzrə özünütəminetmə səviyyəsində də artım var - 2023-cü ildəki 94,9 faizdən 96,5-ə qədər. Artım balıq və balıq məhsullarında da müşahidə olunub - 2023-cü ildəki 75,4 faizdən ötən il 77,3 faizə.

Quş əti üzrə təminatda isə kəskin azalma qeydə alınıb. 2024-cü ildə göstərici 76,6 faiz təşkil edib ki, bu da 2023-cü ildəki 81,7 faizlə müqayisədə 5,1 faiz bəndi aşağıdır.

Maraqlıdır ki, Azərbaycanda son illərdə mal və qoyun sayında sürətli azalma gedir. Bu şəraitdə xaricdən diri heyvan idxalı da artır. Lakin mal və qoyun əti ilə təminat səviyyəsi davamlı artım nümayiş etdirir.

Ölkədə quşların sayı, istehsal olunan yumurta sayı, quş əti və ət məhsullarının istehsalı artsa da, özünütəminat səviyyəsi aşağı düşür. Rəsmi statistikaya əsasən 2024-cü ilin sonunda ölkənin quşçuluq təsərrüfatlarında olan quşların sayı 2023-cü ilin sonu ilə müqayisədə 7,3 faiz artaraq 12 milyon 91,5 min başa çatıb. Bu müəssisələrdə quş əti istehsalı isə diri çəkidə 82,3 min ton təşkil edib. Bu isə 76 min ton istehsalın qeydə alındığı 2023-cü illə müqayisədə 8,3 faiz çoxdur.

Rəsmi ərzaq balansına əsasən 2024-cü ildə Azərbaycanda quş əti və ət məhsullarının istifadəsi 2023-cü ildəki 175 696 tondan 194 942 tona qədər artıb. İl ərzində bu məhsulların istehsalında da artım qeydə alınıb. Belə ki, istehsal 2023-cü ildəki 137 min 501 tondan 143 min 231 tona yüksəlib. İdxal da 31758 tondan 45184 tona çatıb.

Bu zaman əhalinin şəxsi istehlakı 166 139 tondan 184 183 tona qədər artıb. İxrac isə 1977 tondan 2194 tona çatıb.

Beləliklə, quş əti üzrə istehsal göstəricilərində artım var, amma özünütəminat səviyyəsi azalıb. Bunun səbəbi nədir? Ölkəni toyuq yumurtası ilə tam təmin edərək ixraca başlayan quşçuluq sektoru niyə ət istehsalını da sürətlə artırmır? Sualları cavablandıran Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası İdarə Heyətinin sədri Mürvət Həsənlinin "Yeni Müsavat"a dediyinə görə, ölkədə toyuq ətinə tələbat sürətlə artır: "Əvvəla, əhali sayı artır, ikincisi, ölkəyə gələn turistlərin sayı artır. Üçüncüsü isə mal və qoyun ətinin sürətlə bahalaşması fonunda quş əti qiymətləri sabit qalır, kəskin şəkildə ucuzdur. Bütün bunlar toyuq ətinə tələbatı onun istehsal sürətindən daha yüksək sürətlə artırır. Açığını deyim ki, Azərbaycanın quşçuluq təsərrüfatları qısa müddətdə ət istehsalını kəskin artırmaq potensialına malikdirlər. Necə ki, biz 2-3 ildə damazlıq və süfrə yumurtası ilə özünütəminat səviyyəsini 100 faizdən yuxarıya çatdırıb, ixraca başlamışıq, eyni qaydada toyuq ətində də istehsalı artıra bilərik. Nəinki bilərik, bunu istəyirik də".



Assosiasiya rəhbəri bildirir ki, ətlik istiqamətdə ixtisaslaşan quşçuluq təsərrüfatlarının istehsalı artırması üçün bir sıra mühüm məsələlərin həllinə ehtiyac var: "Ölkəmizdə quş əti ilə təminatı yüz faizə qaldırmaq, ixraca hədəflənmək, həmçinin yerli bazarda toyuq əti və ərzaqlıq yumurtanın qiymətində artımın qarşısını almaq üçün müəssisələrin genişlənməsi, yeni istehsal texnologiyalarının tətbiqi vacib şərtdir. Bunun üçünsə torpaq sahələrinin əldə olunması və yaxud mövcud ərazilərdə yeni binaların tikintisi həyata keçirilməlidir. Belə ki, sovet dövründən tikilən tikililər quşçuluqda istifadə olunan müasir texnologiyaların tətbiqinə imkan vermədiyinə görə müəssisələr onları sökərək yerində, yaxud müasir texnoloji tələblərə uyğun olaraq bir qədər başqa ərazidə yeni binalar tikmək istəyirlər. Çünki sovet dövründən tikilmiş inqubator stansiyaları, yem sexləri, kəsim sexləri və digər binalar yeni dövrün texnologiyasının tətbiqinə imkan vermir.Təsərrüfatlarda yenidənqurma işlərinin aparılması olduqca vacibdir. Lakin biz bunu edə bilmirik, çünki ölkəmizdə olan torpaqların əksəriyyəti kənd təsərrüfatı təyinatlıdır və iki kateqoriyaya aiddir: əkin və örüş. Əkin torpaqlarında əkinçilik, örüşdə isə mal-qaranın otarılması nəzərdə tutulur. Lakin real vəziyyət belədir ki, "kənd təsərrüfatı təyinatlı" adı altında qeydiyyata alınan torpaqların xeyli hissəsi nə əkin üçün, nə də örüş kimi istifadəyə yararlı deyil. Bir yabanı otun da bitmədiyi yararsız ərazilərimiz var ki, sənədlərdə kənd təsərrüfatı təyinatlı torpaq olduğu üçün həmin qayalıqda sahibkarlar bir toyuq hini də tikə bilmir. Ya da hansısa bir fermer köhnə fermasını söküb yerində modern ferma qura bilmir. Buna ilk növbədə qanunvericiliyi bəhanə edən yerli icra hakimiyyətləri imkan vermir. Yerli icra hakimiyyəti orqanlarına təsərrüfatın genişləndirilməsi, müasir texnologiyaların tətbiqi üçün həyati əhəmiyyəti olan tikintilərin aparılması ilə bağlı müraciətlərimiz qulaqardına vurulur. Bir çox hallarda isə onlar əvvəlcədən tikinti üçün alınan icazələr əsasında işlərin həyata keçirilməsinə imkan vermirlər. Bu kimi hallar ölkənin ən iri quşçuluq təsərrüfatlarının inkişaf planlarına ağır zərbə vurmaqdadır".

M.Həsənlinin sözlərinə görə, son 2 ildə dünyanın müxtəlif regionlarında yayılan xəstəliklər, xüsusilə də quş qripi quşçuluq sahəsinə çox böyük zərər vurub: "Bu səbəbdən bir ildir ki, ABŞ bazarında süfrə yumurtası manatla ifadə etsək, 1 AZN-ə qədər bahalaşıb, qardaş Türkiyədə qiymət 0,3 AZN-ə yaxınlaşır. Çox şükürlər olsun ki, Azərbaycanda bu ağır patogen xəstəliklə bağlı vəziyyət stabildir, yoluxma halına rast gəlinmir. Biz quşçuluq təsərrüfatları ölkəmizdə quş qripinə yoluxmanın qeydə alınması ehtimalını təsəvvür belə etməyə qorxuruq, çünki bu təqdirdə milyonlarla baş toyuq sürüləri qısa müddətdə məhv ola bilər. Bunun əsas səbəbi odur ki, təsərrüfatların istehsal binaları neçə illərdir dünya praktikasına uyğun təcridedilmə prosesinin təmin olunmasına imkan verməyəcək hala gəlib. İstifadə etdiyimiz binaların əksəriyyəti Sovet dövründən qalmadır, onların şərtləri müasir istehsal texnologiyalarını tətbiq etməyə imkan vermir. Bu binalarda hər hansı xəstəlik aşkarlandığı təqdirdə müxtəlif yaş qruplarından olan toyuq sürülərini bir-birindən təcrid etmək mümkün deyil.

Ümumiyyətlə, bildirim ki, quşçuluğun ən mühüm spesifik xüsusiyyətlərdən biri təsərrüfatda bir mövsüm quş saxlandıqdan sonra bioloji fasilənin verilməsidir. Ancaq bu gün mövcud reallıqda bunu etmək mümkün deyil. Bioloji fasilə zamanı bir binada bir mövsüm quş saxlandıqdan sonra bina tamamilə boşaldılır, yuyulur təmizlənir, dezinfeksiya edildikdən sonra ən az 6 ay müddətinə boş saxlanılır. Bunu etməkdə məqsəd virus və bakteriyaların aparılan vaksinasiya proqramına qarşı immunitet qazanmasının qarşısını almaqdır. Təəssüf ki, bugünkü şərait Azərbaycanın quşçuluq təsərrüfatlarına bu vacib prosesi təmin etməyə imkan vermir".

Quşçuluq təsərrüfatlarının daha bir problemi elektrik təchizatı şəbəkələrinə qoşulma sahəsində 2024-cü ildən tətbiq olunan yeni tariflərdən qaynaqlanır: "İndiyədək bütün kənd təsərrünfatı istehsalçılarına digər biznes sahələrindən fərqli qoşulma sistemi və tarifləri tətbiq olunurdu. Bu, digər biznes sahələri ilə müqayisədə daha aşağı rentabelli, həmçinin çoxsaylı risk faktorlarından asılı olan kənd təsərrüfatı istehsalçıları üçün mühüm güzəşt demək idi. Lakin ölkədə tətbiq olunan yeni qanunverici baza, ona müvafiq olaraq Azərbaycan Respublikası Tarif(Qiymət) Şurasının 2024-cü ilin 3 may tarixində qəbul etdiyi "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödəniş məbləğlərinin tənzimlənməsi barədə" qərar kənd təsərrüfatı istehsalçıları ilə digər biznes sahələri üçün eyni tariflər tətbiqini nəzərdə tutur. Yeni tariflərə əsasən 600 kVt-lıq bir transformatorun qoyulması üçün quşçuluq təsərrüfatının 102-175 min manat arası qoşulma haqqı ödəməsi tələb olunur. Bundan əlavə, quşçuluq təsərrüfatları elektrik şəbəkəsinə qoşulma üçün texniki şərt almağa 70-100 min manat arası rüsumu ödəməli olurlar. Təxminən eyni vəziyyət qaz, su xətlərinə qoşulmada da mövcuddur. Bu, quşçuluq təsərrüfatları üçün çox böyük maliyyə yükü yaradır. Buna görə də kənd təsərrüfatı istehsalçılarının elektrik enerjisi, qaz və su təchizatı şəbəkələrinə qoşulması tariflərinin digər biznes sahələrindən fərqləndirilməklə, daha aşağı tariflərin tətbiq olunması son dərəcə vacibdir".

Azərbaycan quşçuluq təsərrüfatlarının kəsim avadanlıqlar ilə bağlı da çətinlikləri var: "Hazırda quş əti istehsalçıları bu cür avadanlıq və texnologiyaların idxalının 40 fazinin dövlət tərəfindən subsidiyalaşdırılması mexanizmindən yararlana bilmirlər, çünki bu dəstək onlara şamil olunmur. Qlobal bazarlarda son illərdə gedən bahalaşma şəraitində quş əti istehsalçıları avadanlıq və texnologiyaları yeniləmək üçün tələb olunan yüksək məbləğli investisiya qoyuluşlarını özləri həyata keçirə bilmirlər.

Xüsusilə də bu gün quşçuluq təsərrüfatları köhnə və yaxuddakı ikinci-üçüncü əl işlədilmiş kəsim avadanlığı ilə işləyirlər. Nəticədə təsərrüfatlarda saxlanılan quşlar kəsim sexinin olmaması və yaxud olanların isə yararsız olduğuna görə diri halda satılır. Ölkəmizin özünü tam şəkildə quş əti ilə təmin etməsi, ixracın təmin olunması üçün digər problemlərlə yanaşı, bu problemin də həll olunması çox vacibdir. Yəni yetişdirilən quş mütləq sonucda kəsilərək istehlakçıya çatdırılmalıdır. Ancaq bu gün həm ölkəmizdə, həm digər ölkələrdə tələblər və normalar getdikcə yüksəldiyindən və dəyişdiyindən əldə olan texnologiya geri qalır və buna cavab vermir".

M.Həsənlinin sözlərinə görə, bütün qeyd etdiyi çətinliklərlə bağlı Azərbaycanın Baş naziri də daxil olmaqla, bütün əlaqədar strukturlara müraciət ediblər: "Müraciətlərimiz bir neçə dəfə olub, hələlik real addımlar atılmayıb. Ümid edirik ki, açıqlanan rəsmi statistikadan sonra məsələ gündəmə gətiriləcək".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 159 (8769) 6 sentyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

# Azərbaycanda şin istehsalı niyə baş tutmur?

### Ölkədə avtomobillə yanaşı, təkərə tələbat getdikcə artırsa...

**Azərbaycanda avtomobillərin sayı sürətlə artır. Son məlumatlara əsasən, ölkə üzrə avtomobil sayı 1,9 milyon ədədə yaxınlaşır. Avtomobil sayının belə sürətli artımı fonunda ölkədə şin istehsalının qurulmaması mütəmadi olaraq müzakirə edilir.**



Sovet dövründə - 1959-cu ildə Azərbaycanda şin istehsalı zavodu yaradılıb. 2005-ci ildə onun bazasında "Azərşin" ASC formalaşdırılıb, lakin Sovetdən sonra dayanan müəssisədə istehsalı bərpa etmək mümkün olmayıb. Müəssisə səhmləşdirilərək bir neçə dəfə özəlləşmə üzrə hərraca çıxarılsa da, iddiaçıların olmaması üzündən alınmayıb. Bakının mərkəzə yaxın hissəsində böyük bir ərazidə yerləşən zavodun ayrı-ayrı hissələri müxtəlif kiçik istehsal sexlərinə icarəyə verilirdi. İndi isə onun tamamilə ləğvi məsələsi gündəmə gəlib. Səhmdarların ümumi yığıncağı oktyabra təyin olunub, fəaliyyəti olmadığına görə onun ləğvi məsələsi gündəliyə salınıb.

İqtisadçı-ekspert Natiq Cəfərlinin fikrincə, Azərbaycanda şin istehsalını yoluna qoymaq üçün zəruri olan əsas xammal - neft varkən bu sahədə addım atılmaması tənqidəlayiqdir: "Dünyada istehsal olunan bütün təkərlərin təxminən 80 faizi neftdən əldə edilən sintetik kauçukdan hazırlanır. Sintetik kauçukun tərkibi üçün lazım olan monomerlər (məsələn, butadien, stirol) istehsal etmək üçün neft emal edilir. Rezin birləşməsinə neft yağları əlavə edilir, onlar yumşaldıcı rolunu oynayır və təkərin xüsusiyyətlərinə təsir göstərir. Şin istehsalı üçün Azərbaycan nefti çox uyğundur, neftin emalından alınan materiallarla keyfiyyətli məhsul istehsal etmək olar.

Avtomobil həvəskarlarının çox bəyəndiyi təkər markası var - Pirelli, İtaliya istehsalıdır. Azərbaycan neftindən istehsal olunur, Bakıda satılan qiymətlərə baxın, təkər istehsalı kompüter deyil, mikrocip deyil, qəliz texnologiya heç deyil, yaxşı, biz nə vaxta qədər İtaliyaya 1 barel - 159 litr xam nefti 70 dollara, yəni litrini 44 sentə satıb, sonra həmin neftdən alınan şinin birini 500-800 manata, yəni 300-500 dollar arası alacağıq"?!

Ekspert bildirir ki, ölkədə 2005-ci ildə "Azərşin" yaradıldı, işləyə bilmədi, indi bağlanır: "Pirelli bir qırağa, ölkədə 1,2 milyondan çox avtomobil var, deməli, təqribən, 5 milyon təkər fırlanır, özümüz üçün şin belə istehsal edə bilmirik".

Qeyd edək ki, 2018-ci ildə Azərbaycanda Çin şirkəti ilə birlikdə şin istehsalına başlanması üçün müəyyən addımlar atılıb. Belə ki, həmin il "Azərbaycan İnvestisiya Şirkəti" ASC və Çinin "Çin Milli Elektrik Mühəndisliyi Ko. Ltd" (CNEEC) şirkəti arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. 2019-cu ildə rəsmilər bildiriblər ki, 2020-ci ildə Azərbaycan və Çin Sumqayıt Kimya Sənaye Parkında avtomobil şini (təkər) istehsalı zavodunun tikintisinə başlayacaqlar. Zavodun tikintisinə 300 milyon ABŞ dolları investisiya qoyulacağı, layihədə Çin tərəfinin payının 90 faiz, Azərbaycan tərəfinin isə 10 faiz olacağı açıqlanıb. Zavodun istehsal gücünün ildə 3,3 milyon ədəd təşkil edəcəyi, bunun 3 milyon ədədinin minik avtomobili, 300 mininin isə yük avtomobili üçün istehsal olunacağı elan edilib. Zavodun tikintisinin 3 ilə başa çatması, 5 ildən sonra isə tam gəlirə çıxması gözlənilirdi.

Çin şirkətinin Sumqayıt Kimya Sənaye Parkının rezidenti olacağı da açıqlanan məlumatlar arasındaydı. Yeni zavodun məhsuluna rəqabətsiz mühit yaratmaq üçün 2018-ci ildə Gömrük Məcəlləsinə dəyişiklik edilib, işlənmiş şinlərin idxalına tətbiq olunan 1 ədəd üçün 3 avro rüsum 10 avroya qədər artırılıb. Lakin ötən müddət ərzində zavodun tikintisinə başlanmayıb, CNEEC şirkətinin adı nə AİŞ-in tərəfdaşları, nə də Sumqayıt Kimya-Sənaye Parkının rezidentləri arasında yoxdur.

Ölkədə avtomobillərlə yanaşı, təkərə olan illik tələbat da getdikcə artır. Son məlumatlara görə, Azərbaycanda minik avtomobilləri üçün təkərlərə illik tələbat 2 milyon 700 minə yaxın və yük avtomobilləri üçün 500 min ədəd təşkil edir. Bunun hamısı xaricdən idxal olunur. Təzə təkər şinlərinin idxalına çəkilən xərc bir ildə 110 milyon dolları ötür. Belə ki, 2023-cü ildə minik avtomobilləri üçün təzə təkər şinlərinin idxalına 47,3 milyon dollar, yük avtomobilləri və avtobuslar üçün təzə şinlərin idxalına 52 milyon dollar xərclənib. Digər minik avtomobillərinin şinləri üçün 12 milyon dollara yaxın vəsait ayrılıb. 2024-cü ildə minik avtomobilləri üçün təzə pnevmatik rezin şinlərin idxalı 48 milyon 284,65 min dollar dəyərində 1 milyon 583 min 231 ədəd təşkil edib. Bunun 1 milyon 663,58 min ədədi Çindən gətirilib. Qalanların idxalında əsas ölkələr Rusiya, Cənubi Koreya, Tailand, Türkiyə olub. Ötən il yük avtomobilləri və avtobuslar üçün təzə pnevmatik rezin şinlər idxalına 46 milyon 867,2 min dollar sərf olunub(384 min 97 ədəd). Burada da 285 803 ədədlə Çin öndə gedir, ondan sonra Rusiya və Türkiyə gəlir.

Maraqlıdır ki, işlənmiş təkərlərin idxalına tətbiq olunan rüsumların artması onun idxalını qısa müddətə azaltsa da, sonradan yenidən kəskin artım qeydə alınmaqdadır. Rəsmi statistikaya əsasən 2017-ci ildə Azərbaycana işlənmiş pnevmotik şin idxalı 310 157 ədəd, 2018-ci ildə 126 839 ədəd olub, 2019-cu ildə 80 477 ədəd, 2020-ci ildə 47 143 ədədə düşsə də, 2021-ci ildən yenidən artmağa başlayaraq 51 514 ədədə, 2022-ci ildə 98 297 ədədə, 2023-cü ildə 95 333 ədədə, 2024-cü ildə 75592 ədədə çatıb, 2025-ci ilin birinci yarısında isə 31 732 ədəd təşkil edib. İşlənmiş şin idxalında birinci yerdə Almaniya, ikinci yerdə Yaponiya gəlir.

Göründüyü kimi, xammal ehtiyatı özümüzdən olan bir məhsula tələbat yüksək olsa da, indiyədək onun istehsalına nail olunmayıb. Halbuki bu, yüzlərlə insanı işlə təmin etməklə yanaşı, ölkəyə ciddi gəlir gətirə biləcək sahədir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT

# Tullantı sularını düzgün idarə etməyənlər cərimələnəcək



**Tullantı suların qanunvericiliklə müəyyən olunmuş qaydada düzgün idarə edilməsi, təmizlənməsi və digər məqsədlər üçün istifadə olunması istiqamətində cəmiyyətin maarifləndirilməsi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin (SİMDNX) qarşıya qoyduğu hədəflərindəndir.**

Bu barədə Modern.az-a SİMDNX-dən bildirilib.

Məlumata görə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 295 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzləşdirilmiş kanalizasiya şəbəkələri olmayan ərazilərdə qeyri-yaşayış binalarından onların istismar təyinatı nəzərə alınmaqla axıdılan çirkab sularının yığılacağı tikili və qurğulara dair Tələblər"ə əsasən mərkəzləşdirilmiş kanalizasiya şəbəkəsi olmayan ərazilərdə yerləşən qeyri-yaşayış binalarında formalaşan tullantı sular çirkab quyularından istifadə olunmaqla idarə olunmalıdır.

Çirkab quyularının divarları və dibi sukeçirməz olmalı, habelə həmin quyuların inşası kanalizasiya, xarici şəbəkə və qurğulara dair texniki normativ hüquqi aktların tələblərinə uyğun həyata keçirilməlidir.

Sənaye müəssisələri tərəfindən tullantı sularının düzgün idarə olunması xüsusilə mühüm əhəmiyyət kəsb edir. Onların fəaliyyəti nəticəsində yaranan tullantı sularının tərkibində ətraf mühit üçün zərərli olan maddələrin miqdarı daha yüksək olur. Bu məqsədlə çirkab su quyularının (şambolar) istifadə olunması ilə yanaşı müəssisə və təşkilatlar tərəfindən tullantı suları lokal təmizləyici qurğularda təmizləndikdən sonra kənarlaşdırıla bilər. Bu halda tullantı suların kənarlaşdırılacağı yer və tərkibindəki çirkləndirici maddələrin qatılıq həddi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə razılaşdırılmalıdır.

Qeyd olunan tələblərə riayət edilməməsinə görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən vəzifəli şəxslər 4000 manatadək, hüquqi şəxslər 12500 manatadək məbləğdə cərimə edilir. Həmçinin müəssisə və təşkilatlar tərəfindən su mənbələrinin əhəmiyyətli dərəcədə çirkləndirilməsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyəti yaradır.

Suların istifadəsi və mühafizəsi sahəsində mövcud qanunvericiliyin tələblərinə riayət edilməməsi qlobal iqlim dəyişikliyi və regionumuzda müşahidə olunan su qıtlığı şəraitində daha da təhlükəli nəticələrə gətirib çıxara bilər. Bu səbəbdən də tullantı sularının təmizlənməsi təkcə hüquqi yox, həm də mənəvi öhdəlikdir.

# Azərbaycan xaricə qurbağa ayağı satır - Səbəb

**Cari ilin avqust ayında Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən beynəlxalq tələblər nəzərə alınmaqla, bir sıra heyvan mənşəli qida məhsulları və ərzaqlıq yumurta məhsulları baytarlıq sertifikatı ilə təmin edilərək xarici ölkələrə ixrac edilib.**

Agentlikdən verilən məlumata görə, Amerika Birləşmiş Ştatlarına 4.320.000 ədəd, Birləşmiş Ərəb Əmirliklərinə isə 1.158.460 ədəd ərzaqlıq yumurta ixrac olunub. Bundan əlavə, İtaliya və Fransaya 3,6 ton qurbağa ayağı, Avstraliya, Albaniya və Kanadaya 42 kq balıq kürüsü, İsrailə isə 18 ton dondurma məhsulu göndərilib.

Modern.az-a açıqlamasında qida eksperti Fərid Səfərov bildirib ki, qurbağa ayağı və digər qeyri-ənənəvi heyvan mənşəli məhsulların Azərbaycandan ixracı bir neçə əsas faktorla bağlıdır. Onun sözlərinə görə, qurbağa ayağı Avropada (xüsusilə Fransa, Belçika, İtaliya) və Asiyada (Çin, Vyetnam, Tailand) yüksək tələbat olan delikates məhsuldur: "Bu ölkələrdə qurbağa əti yüksək zülallı, az yağlı hesab olunur. Ona görə də ixrac Azərbaycanın daxili bazarına yox, xarici tələblərə yönəlib. Belə məhsullar "egzotik" qida kateqoriyasında xaricdə alıcı tapır".

Ekspert həmçinin ixracın iqtisadi faydasına da toxunub: "Yerli istehlakda qurbağa ayağı demək olar ki, istifadə olunmur. Lakin ixracı ölkəyə əlavə valyuta gətirir. Bu, kənd təsərrüfatı və baytarlıq məhsullarının şaxələndirilməsi siyasətinin bir hissəsi kimi də qiymətləndirilə bilər".

F.Səfərov qeyd edib ki, qida məhsulları beynəlxalq baytarlıq və sanitariya normalarına uyğunlaşdırıldıqdan sonra ixrac olunur: "Bu həm də Azərbaycanın qida təhlükəsizliyi sisteminin beynəlxalq səviyyədə qəbul olunmasının göstəricisidir",- o əlavə edib.



Mütəxəssis eyni zamanda dünyada qeyri-ənənəvi protein mənbələrinə marağın artdığını da vurğulayıb: "Qurbağa əti, ilbiz, həşərat mənşəli proteinlər və s. Azərbaycanda da bu bazara daxil olaraq rəqabət aparmağa çalışır. Qurbağa ayağının Azərbaycandan ixracı isə ölkə daxilində tələbdən çox, xarici bazarın marağı və iqtisadi fayda ilə bağlıdır",- F.Səfərov əlavə edib.

# İnternetdən dərman alışı kütləviləşir - Ölüm riski, cərimə...

## Zülfüqar Yusifov: “Onlayn apteklərin mütəmadi monitorinqi aparılmalıdır”

**“Dərman vasitələri haqqında” qanunvericiliyə əsasən, əhaliyə dərman vasitələri yalnız aptek təşkilatları tərəfindən buraxılır. Vətəndaşlar müxtəlif internet səhifələrindən və ya sosial şəbəkələrdən onlayn şəkildə dərman vasitələri sifariş verməməli, müalicə həkiminin təyinatı əsasında dərman vasitələrini apteklərdən alıb, istifadə etməlidirlər".**

Bu barədə Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən (AEM) bildirilib.

Qeyd edilib ki, həkimin təyinatı olmadan internet üzərindən sifariş verilən dərman vasitələrindən istifadə etmək tövsiyə olunmur. Çünki düzgün doza və istifadə qaydaları həkim tərəfindən müəyyən edilməlidir. Əks təqdirdə, düzgün istifadə olunmayan dərmanlar sağlamlığa ciddi zərər yetirə bilər.

Yalnız dərman vasitələrinin pərakəndə satışı əczaçılıq fəaliyyətinə lisenziyası olan apteklərin rəsmi internet səhifəsindən dərman vasitələri sifariş oluna bilər. Bu zaman dərman vasitələrinin çatdırılması müvafiq saxlanma və daşınma şərtlərinə ciddi riayət edilməklə həyata keçirilməlidir. Həmçinin vurğulanıb ki, dərman vasitələrinin dövriyyəsi zamanı reklam haqqında qanunvericiliyin pozulması zamanı İnzibati Xətalar Məcəlləsinin 428-ci maddəsinə uyğun cəza tədbirləri nəzərdə tutulub.

AEM vətəndaşlara tövsiyə edir ki, onlar özəl tibb müəssisələrində və aptek təşkilatlarında qanunsuz fəaliyyətlə və ya şübhəli hallarla rastlaşdıqda mərkəzin “Bir pəncərə” sektoru, Qaynar xətt və veb-sayt (www.pharma.az) vasitəsilə müraciət edə bilərlər.

Bu rəsmi çağırışa baxmayaraq, onlayn dərman alanlar hələ də var. Bu da vətəndaşların həyatını riskə atan haldır.

İnsanları bu addımlardan çəkindirmək üçün hansı addımlar atılmalıdır? Vətəndaş internet vasitəsi ilə dərman almağa niyə üstünlük verir?

Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb. Həkim qeyd edib ki, dərman maddələrinin satışına nəzarət məsələləri olduqca əhəmiyyətli bir problemdir və müxtəlif ölkələrdə fərqli şəkildə tənzimlənir: “Son illərdə bu mövzuya bizim ölkəmizdə də diqqət artmaqdadır. Xüsusən də elektron səhiyyə sisteminin meydana çıxması, güclü təsirə malik psixotrop və digər dərmanların yalnız elektron reseptlə yazılması bu kimi maddələrə nəzarət mexanizmini xeyli dərəcədə optimallaşdırıb. Lakin bununla yanaşı digər çoxsaylı dərman vasitələrinə hələ də tam nəzarət etmək asan deyil. Çünki bu sahədə pərakəndə satışla məşğul olan çox sayda mənbə, o cümlədən onlayn təkliflər mövcuddur”.

Zülfüqar Yusifov qeyd edib ki, onlayn satış artıq müasir dünyanın qaçılmaz bir parçasıdır: “Lakin burada əsas şərt onlayn apteklərin rəsmi icazə ilə fəaliyyət göstərməsidir. Əgər onlayn apteklərin lisenziyası varsa və onlar rəsmi qaydada çatdırılma xidməti göstərirlərsə, bu, narahatedici hal hesab edilmir. Belə hallarda sadəcə xidmət forması dəyişir və pasiyent üçün asanlıq təmin olunur. Əsas məsələ bu fəaliyyətin lisenziyalı, qanuni şəkildə aparılmasıdır.



Eyni zamanda, lisenziya ilə fəaliyyət göstərən belə onlayn apteklərin mütəmadi monitorinqi aparılmalı, qaydalara riayət etməyən mənbələrə qarşı isə müvafiq tədbirlər görülməlidir.

Dərman maddələrindən danışarkən onların çeşidlənməsi də mühüm əhəmiyyət kəsb edir. Çünki dərman dediyimiz vasitələr sırasına bioloji fəal qida əlavələri də daxildir. Məsələn, Avropa və Amerikada bəzi preparatlar gündəlik istifadə üçün nəzərdə tutulur və hətta ərzaq mağazalarında belə satılır. Bioloji əlavələrin satışı ilə bağlı nəzarət mexanizmi təbii ki, daha yumşaqdır. Amma həyati əhəmiyyət kəsb edən, güclü təsirə malik dərmanların satışı və istifadəsi isə ciddi nəzarət altında olmalıdır. Bu cür dərmanlar yalnız həkim resepti əsasında, lisenziyalı apteklər və onların rəsmi onlayn filialları tərəfindən buraxılmalıdır. Çünki bu vasitələrin düzgün istifadə olunmaması böyük fəsadlara və insan həyatı üçün təhlükəli nəticələrə gətirib çıxara bilər".

Həkim həmçinin bildirib ki, ölkəmizdə bu istiqamətdə kifayət qədər ciddi işlər görülür və artıq mühüm uğurlar da əldə olunub:

“Elektron resept sisteminin tətbiqi tədricən oturuşur və yaxın gələcəkdə bütün tibb müəssisələri ilə həkimlər tam şəkildə bu sistemə uyğunlaşdıqdan sonra dərman satışının tənzimlənməsi və monitorinqi xeyli asanlaşacaq. Belə olan halda elektron sistemdən kənarda aparılan hər hansı satış dərhal qeyri-qanuni fəaliyyət kimi aşkarlana biləcək.

Burada xüsusi olaraq qeyd etmək lazımdır ki, pasiyentlərin maarifləndirilməsi də mühüm rol oynayır. İnsanlar bilməlidirlər ki, həkim məsləhəti olmadan dərman qəbul etmək ciddi fəsadlara gətirib çıxara bilər. Ona görə də həkimlər yalnız resept yazmaqla kifayətlənməməli, həm də pasiyentləri dərmanların istifadəsi, təsiri və mümkün təhlükələri barədə maarifləndirməlidirlər".

Zülfüqar Yusifov vurğulayıb ki, tibb müəssisələrinin həkim fəaliyyətinə nəzarəti güclü olmalı, ictimai nəzarət və monitorinq mexanizmləri də işlək vəziyyətdə saxlanılmalıdır:

“Əgər bu işlər kompleks şəkildə - Səhiyyə Nazirliyi, həkimlər və cəmiyyətin birgə fəaliyyəti ilə həyata keçirilərsə, dərman vasitələrinin satışına nəzarətdə daha böyük uğurlar əldə etmək mümkündür”.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Qızıl alanlar, tələsin! Ay sonuna qiymət daha da artacaq - reportaj

**Məhərrəmlik ayı bitdikdən sonra bir neçə sahədə olduğu kimi, qızıl bazarında da canlanma müşahidə olunur. Toy, nişan mərasimləri üçün hazırlığa başlayanlar qızıl dükanlarını gəzməyə başlayıblar.**

Qızılın alışında isə artım davam etməkdədir. Hazırda ən çox tələbat olan türk qızılının (585 əyar) bir qramının qiyməti 135 manatdır. Bir neçə qızıl dükanında apardığımız müşahidələr göstərdi ki, qiymət hər nə qədər yüksək olsa da, alıcılar məcburən əllərini cibinə salmalı olurlar. Alıcılar bildirdilər ki, maddi baxımdan sıxıntı yaransa da, başqa yolu yoxdur, həyatda bir dəfə olan toy üçün hazırlıq görməlidirlər:

Alıcı: “Qiymətlər çox bahadır. Günü-gündən də bahalaşır. Amma nə edək, oktyabrda toyumuz var. Gəlinimizə nişanda ancaq üzük apara bildik. İndi isə həm toy üçün, həm də gündəlik üçün dəst almaq istəyirəm. Əvvəllər bir dəsti 2000-2500-ə almaq olurdu. Tanış satıcı olanda qiymətdə endirim də edirdilər. İndi isə çox bahadır. 5-6 min manatla istədiklərimizi alsaq, sevinərik”.

Alıcı: “Oğlum üçün nişan aparacağıq. İmkanım ancaq üzük və qolbaq almağa çatır. Eşitdik, ay sonuna qədər qiymətlər artacaq, dedik, tez gələk alaq”.

Satıcılarla da söhbətləşdik:

Satıcı: “Sizdən bir az əvvəl gəlib dedilər ki, maya dəyərini qaldıraq. İndi qızılın qramı 135 manatdır, amma belə getsə, ay sonuna qədər 150 manata qədər qalxacaq. Yeni elə eşitmişik. Müştəri var, indi toy mövsümüdür deyə baxan çoxdur. Alan da var, amma əvvəlki kimi birdəfəyə çox qızıl ala bilmirlər. Kimi ancaq sırğa alır, kimi azçəkili dəst. Toy üçün əsas italyan qızıllarına baxırlar, onun da bir qramının qiyməti 150-160 AZN-dir”.

Satıcı: “Maya dəyərini qaldırmağa məcbur olanda məhsulun qiyməti də qalxır. Məsələn, maya dəyəri 132 manatdırsa, biz satışı 135 manatdan etməliyik. Görünən odur ki, yeni gələn məhsulların qramını 150 manata satmağa məcbur olacağıq”.

Satıcılar həmçinin bildirdilər ki, hər nə qədər italyan qızılına maraq böyük olsa da, tələbat əsasən rus və türk qızılınadır.

Yeri gəlmişkən, bu gün Azərbaycanda bütün əyarlı qızıl növlərində rekord bahalaşma qeydə alınıb.

Belə ki, hazırda 585 əyarlı qızıl 130-150 AZN, 750 əyarlı qızıl-170-200 AZN, 999.9 əyarlı qızıl (əsasən külçə və sikkələr) 210-220 AZN aralığında satılır.

❑ **Nigar HƏSƏNLİ,**
**Fotolar müəllifindir,**
**“Yeni Müsavat”**





YENİ MÜSAVAT
N 159 (8769) 6 sentyabr 2025

# Kim 150 il yaşamasa... - Ömrün uzadılmasında yeni mərhələ



**Pekində keçirilən hərbi parad zamanı diqqətdən yayınmayan maraqlı bir detal dünya mediasının müzakirə mövzusuna çevrilib. İddialara görə, Rusiya prezidenti Vladimir Putinlə Çin rəhbəri Si Cinpin arasında baş tutan qısa söhbət təsadüfən mikrofonlara düşüb. Söhbətin məzmunu isə hərbi parada aid olmayıb - iki lider "insan ömrünün 150 ilə qədər uzadılması" perspektivindən bəhs ediblər.**

Putin uzunömürlülüklə maraqlandığını dilə gətirib, Si Cinpin isə cavabında müasir texnologiyaların artıq bu istiqamətdə ciddi imkanlar açdığını bildirib. Çin liderinin fikrincə, orqan transplantasiyası və biotibbin inkişafı yaxın onilliklərdə insanların 150 il yaşamasına şərait yarada bilər.

Hadisə təsadüfi bir mikrofon "sızıntısı" kimi görünə bilər. Amma diqqət yetirsək, söhbət adi elmi-fantastik fantaziyadan daha çox geosiyasi kontekstə sahibdir. Çin son illərdə biotexnologiya və süni intellektə böyük sərmayələr yatırır. Bu, yalnız səhiyyə sektoruna deyil, həm də qlobal nüfuz mübarizəsinə xidmət edir.

ABŞ-nin "Silikon vadisi"ndə də Jeff Bezos, Sem Altman kimi milyarderlər insan ömrünü uzatmaq üçün "Altos Labs", "Calico" və "Retro Biosciences" kimi nəhəng layihələrə milyardlarla dollar yatırırlar və bu mövzuda Pekin də geri qalmır. Çin dövlətinin dəstəklədiyi institutlar həm yaşlanmaya qarşı müalicələr, həm də süni orqan texnologiyalarında irəliləyiş əldə etdiklərini iddia edirlər.

Müasir elmi araşdırmalara nəzər yetirsək, 150 illik ömür hələ ki nəzəri mülahizədir. Senolitik dərmanların siçanlarda uğurlu nəticələr verməsi, epigenetik reproqramlamanın hüceyrələri qismən gəncləşdirməsi, bioorqan və transplantasiya texnologiyalarının inkişafı bu istiqamətdə müəyyən ümid yaradır. Amma hələ ki bütün bunlar eksperimental mərhələdədir və ciddi risklər mövcuddur. Ekspertlərin qənaətinə görə, yaxın onilliklərdə insanlar əlavə 10-20 il sağlam ömür qazana bilərlər. 150 illik ömür isə yalnız uzaq perspektivdə və texnologiyanın çox irəlilədiyi halda mümkündür.

Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, orqanizmin potensialı 150, bəlkə də daha çox yaşamaq üçün imkan verir. Sadəcə, məsələ bu potensialın necə istifadə olunmasındadır:

"Həmçinin orqanizmin hansı mühitdə yaşaması da olduqca vacibdir. Çünki sivilizasiya bu nöqtəyə gəlib çatmazdan əvvəl insanların həyatı vəhşi təbiətdə böyük risklərlə, təhlükələrlə üz-üzə qalaraq sona çatırdı. Bundan sonrakı dövrlərdə müharibələr və digər fəlakətlər insan ömrünü məhdudlaşdırdı. İndi isə müharibələrlə yanaşı, ətraf mühitin yaşayış üçün əlverişli vəziyyətə gətirilməsi məsələsi önə çıxır. Enerji mənbələrinin neqativ təsirləri, silahlanma, karbon emissiyaları və digər faktorlar insan ömrünü təbii olaraq azaldır.

Amma buna baxmayaraq, tibbin bugünkü imkanları, cəmiyyətdəki dəyişikliklər və maariflənmə prosesi ömrün müəyyən qədər uzanmasına gətirib çıxarır.

Sualın ikinci əsas tərəfi isə biotexnologiyaların istifadəsidir. Dünyada bu sahədə ciddi işlər görülür. Xüsusilə, kök hüceyrə istiqamətində aparılan araşdırmalar diqqətə layiqdir. Artıq bu sistemin normal qurulması müəyyən dərəcədə orqanların yenidən yaradılmasına imkan verir. Laboratoriyalarda aparılan eksperimentlər nəticəsində insanın öz hüceyrələrindən identik orqanların yetişdirilməsi mümkün olur. Bu, ciddi bir yenilikdir.

İkinci istiqamət süni intellektin inkişafı ilə bağlıdır. Süni intellekt milyonlarla tədqiqatın nəticəsini eyni anda emal edərək, əvvəllər illərlə vaxt aparan suallara dərhal cavab tapmağa imkan verir. Bu isə biliklərin toplanması və növbəti mərhələyə ötürülməsi prosesini sürətləndirir. İnsanın həyatı bütün bu bilikləri toplamaq üçün kifayət etmir, lakin süni intellekt onları inteqrasiya edib sürətlə yeni mərhələyə çatdırır. Dünyanın müxtəlif yerlərində aparılan eyni istiqamətli tədqiqatların birləşdirilməsi də mümkün olacaq.

Bununla yanaşı, "orqan çapı" istiqamətində aparılan işlər, Yer mühəndisliyi sahəsində görülən uğurlar və neyromodulyasiya texnologiyalarının inkişafı da xüsusi qeyd edilməlidir. Məsələn, bəzi xəstəliklərdə beyinə xüsusi implantlar yerləşdirilərək müəyyən funksiyaların bərpasına nail olunur. Dərin beyin stimulyasiyası vasitəsilə orqanların fəaliyyətinə nəzarət edən mərkəzlərə müdaxilə edilir. Hazırda bu, minimal invaziv üsullarla həyata keçirilir, lakin gələcəkdə kənardan, qeyri-invaziv stimulyasiya da mümkün ola bilər".

Z. Yusifovun fikrincə, bütün bunların nəticəsində orqanizmə idarə olunan təsir mexanizmləri ortaya çıxır. Süni intellekt isə bu biliklərin optimal istifadəsinə şərait yaradacaq: " Fikrimcə, yaxın 20 ildə çox ciddi inqilabi dəyişikliklərin şahidi ola biləcəyik. Bu dəyişikliklər bəşəriyyəti yeni mərhələyə çıxaracaq.

Yaxın onilliklərdə həyat tərzi də dəyişəcək. Artıq bəzi Avropa ölkələrində yeməklərin alternativ formaları gündəmə gəlir. Məsələn, həşəratlardan qida hazırlanır. Digər tərəfdən, gələcəkdə insanın cinsi sistemi də dəyişə bilər. Çünki doğumlara ehtiyac azalacaq və ehtimal ki, xüsusi lisenziyalı inkubatorlarda valideynlərin razılığı ilə seçilmiş genetik material əsasında nəsil artırılacaq. Bu isə insanın obrazını tədricən filmlərdə gördüyümüz yadplanetlilərə oxşar hala gətirə bilər.

Bütün bu fantastik görünən məsələlər əslində bizi gələcəyə hazırlayan siqnallardır. Süni intellektin həyatımıza sürətlə inteqrasiyası, ətraf mühitin idarə olunması, neyrotexnologiyaların inkişafı insanı tədricən daha intellektual bir varlığa çevirəcək. O baxımdan, gələcəkdə yeni tipli varlıqlarla yaşamaq insan üçün problem olmayacaq. Mənim üçün yeganə narahatlıq bu prosesin sürətidir, çünki dəyişikliklər həddindən artıq sürətlə baş verir.

Putinin Çin liderinə verdiyi suallar bu istiqamətdə onun ciddi narahatlıqlarının olduğunu göstərir. Bu, həm yaşamaq istəyi, həm də həyatın sonrasını görmək arzusu ilə bağlı ola bilər. Eyni zamanda müəyyən qorxular da mövcuddur. Məsələn, bir neçə il əvvəl ona robotlar təqdim edilərkən, Putin açıq şəkildə narahatlıq ifadə etmiş və "bu robotlar nə vaxtsa bizim axırımıza çıxacaqlar" kimi bir fikir səsləndirmişdi".

Mövzunun dini tərəfi də diqqətdən kənarda qala bilməz. İslamda həyat Allahın verdiyi nemət, ölüm isə qaçılmaz həqiqət kimi qəbul olunur. Quranda buyurulur: "Hər can ölümü dadacaq" (Ali-İmran, 185). Hədislərdə isə qeyd olunur ki, "hər bir dərdin şəfası var, ölüm istisna olmaqla". Bu baxımdan xəstəliklərin müalicəsi və sağlamlığın qorunması şəriət baxımından təşviq edilir. Amma ölümsüzlük və ya təbii ömrün süni şəkildə həddən artıq uzadılması dini mütəxəssislər arasında mübahisə doğurur.

Milli Məclisin deputatı Ceyhun Məmmədov qəzetə açıqlamasında deyib ki, İslama görə, əsas məsələ insanın ona verilən həyatı necə yaşamasıdır: "Hədislərdə deyilir ki, sizin ən xeyriniz ömrü uzun və əməli saleh olanınızdır. Digər hədislərdə isə qeyd olunur ki, Allahdan xeyirli və faydalı ömür istəyin.

Burada əsas meyar insanın neçə il yaşaması deyil, ömrünün insanlar, cəmiyyət və özü üçün nə qədər faydalı olmasıdır. Dinimiz bizdən tələb edir ki, sağlamlığımıza diqqət edək. Çünki insana verilən ən böyük nemətlərdən biri vaxt, digəri isə sağlamlıqdır. Hədislərdə də vurğulanır ki, insanların çoxu məhz bu iki nemətdə - vaxt və sağlamlıqda - səhlənkarlığa yol verir.

Ona görə də İslam insanın sağlam olmasını və sağlamlığını qorumasını vacib sayır. Əgər bu, təbii yollarla həyata keçirilirsə, təbii ki, normal qarşılanır. Amma əgər dinin prinsiplərinə zidd metodlardan istifadə olunursa, İslam bunu qəbul etmir. Əsas məsələ ömrün nəyə sərf olunması və necə istifadə edilməsidir.

Əgər dinin icazə verdiyi çərçivədə dərmanlardan, tibbi vasitələrdən və metodlardan istifadə edilirsə, buna heç bir maneə yoxdur. Lakin başqa insanların həyatına müdaxilə edilirsə və ya dinin qaydalarına zidd addımlar atılırsa, bu, qəbul edilmir. Burada yenə də əsas məsələ halalçılıq, düzgünlük və dinin prinsiplərinin qorunmasıdır".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**



## "Turistə "pul kisəsi" kimi baxmaq Azərbaycan turizmini məhv edir" - İqtisadçıdan etiraz

**Azərbaycan turizmi son illər sürətlə inkişaf etsə də, hələ də ən əsas problemlərdən biri dəyişməz qalır: turistə birdəfəlik qazanc mənbəyi kimi baxmaq. Mövsüm bitdikcə sektorda təkrar səfərlərin niyə artmadığını, niyə dünya miqyasında tanınmış məkanlarımızın gözlənilən gəlirləri gətirmədiyini daha aydın görmək olur.**

Musavat.com bildirir ki, iqtisadçı Eldəniz Əmirov mövzuya bur cür şərh verib:

"Təəssüf ki, bir çox tarix-memarlıq abidələrində və digər məkanlarda turist hələ də "birdəfəlik gəlir mənbəyi" kimi görülür. Şəkil çəkməyə qadağa qoymaq və yaxud şəkil çəkmək üçün pul tələb etmək kimi yanaşmalar yalnız qısamüddətli qazanc psixologiyasının təzahürüdür. Halbuki turizmin iqtisadi dəyəri təkrar səfərlər və razı qalan turistin tövsiyələri üzərində formalaşır.

Dünyada ən çox ziyarət edilən Parisin Luvr muzeyində tətbiq edilməyən qadağaları biz bəzi məkanlarımızda tətbiq edirik. Buna görə də Luvra 40 avro ödəməyə hazır olan hər il 8-9 milyon turist gəlir, biz isə hələ də belə turizm potensiallı məkanlarımızı dövlət büdcəsindən "asmışıq".

Belə məkanların rəhbərləri və buna qərar verən şəxslər iqtisadi düşüncəsi və uzunmüddətli viziona sahib olmalıdır. Artıq hamı bilir ki, milyonlarla turist çəkdiyi şəkilləri sosial şəbəkələrdə paylaşaraq bu məkanların pulsuz reklamını edir. Belə məkanlarda şəkil qadağası və ya əlavə pul tələbi reputasiyanı korlayır, turistin beynində neqativ yadda qalır".

İqtisadçı qeyd edib ki, turistlərlə qeyri-peşəkar davranma tərzi təkcə dövlət sektoruna aid olan məkanlarla bağlı deyil:

"Sahibkarlarımız və onların xidmət edən heyəti də turistlərə birdəfəlik gəlir yeri kimi baxır. Sanki xəbər gəlib ki, bu il dünya dağılacaq, nə qədər pul qopara bilirsənsə, qopar. Gələn il həyat olmayacaq. Bu faktorlar turizm sektoruna ən çox zərər verən səbəblərdəndir. Əgər bu məkanlarda turistlərə qarşı bu yanaşma dəyişməsə, 2019-cu ilin turizm göstəricilərini hələ uzun illər xatirə kimi xatırlayacağıq. Çünki dövlət hansı infrastrukturu qurursa qursun, hansı dəstəkləyici addımı atırsa atsın, effekt lazımi səviyyədə olmayacaq".

❑ **Xalidə GƏRAY, Musavat.com**

YENİ MÜSAVAT
N 159 (8769) 6 sentyabr 2025

# Şadlıq sarayları əhaliyə "toy tutur" - məcburi menyu problemi

## Restoranlar vəziyyətdən sui-istifadə edirlər; insanların məclisi tez tərk etməsi üçün konkret "alqoritm" müəyyən edilib

**"Təəssüflə qeyd etmək lazımdır ki, toylarımızda israfçılıq getdikcə artır. Yaslarda olduğu kimi, toylarda da israfçılıq çoxdur. İnsanlar bundan əziyyət çəkir, həqiqətən ciddi narahatlıq doğuran məsələdir. Biz ümumiyyətlə çalışmalıyıq ki, israfçılığı həyatımızdan çıxaraq, çünki dünyada bu gün ciddi proseslər gedir, insanların yaşayışı çətinləşir, qida, ərzaq çatışmazlığı artır".**

Bunu deputat Ceyhun Məmmədov deyib. O bildirib ki, toylar bu gün əzablı bir məkana çevrilib (Demokrat.az).

"İnsanlar səs-küydən otura bilmirlər, yeməklərin keyfiyyətində ciddi problemlər var. Baxmayaraq ki, əslində toyun məqsədi istirahətdir, dincəlməkdir, amma insanlar oradan yorulmuş, tükənmiş formada evlərinə qayıdırlar. Ona görə düşünürəm ki, bu məsələyə də baxılmasına ehtiyac var. İnsanlar bu məsələdən əziyyət çəkməyə davam edirlər. Yaslardakı israfçılığı da biz aradan qaldırmalıyıq. Bunun üçün cəmiyyətin bütün üzvləri səfərbər olmalıdır. Toyun məqsədi insanların xoşbəxtliyidir, amma bu gün toy narahatedici bir məsələyə çevrilib", - millət vəkili qeyd edib.

Ümumiyyətlə, son illər toy məclislərinin israfçılığından giley-güzar kütləviləşib. İndi hamı şadlıq saraylarının menyusundan şikayətlənir və masaya bu qədər nemət qoyulmasının əleyhinədir. Çünki bu yeməklərin çoxu elə süfrədə qalır. Nəticədə toy sahibinə artıq xərc düşür. Bu da öz növbəsində toya nəmər salanların da məbləği məcburən artırmasına səbəb olur. Bundan isə qazanan nə ailə quran cütlüklərdir, nə toyu təşkil edən valideynlər. Sadəcə, qazanan restoranlar olur. Ona görə də yas mərasimlərində ehsan məclislərinin sadələşdirilməsi kimi, toylarda israfçılığın aradan qaldırılmasına da ehtiyac yaranıb. Bu azmış kimi, ən azı toy sahibi menyuya dəyişiklik etmək, onu bir qədər yüngülləşdirmək hüququna malik olmalıdır. Yəni bu halda menyunun qiyməti qismən ucuz ola bilər. Ancaq şadlıq sarayları vətəndaşların bu seçim azadlıqlarını əlindən alır və istehlakçı hüquqlarını pozaraq özlərinin tərtib etdiyi menyu ilə hesablaşmağa məcbur edirlər. Yəni şadlıq evlərinin müəyyən etdiyi qiymətlər dəyişməz qalır.

Hüquqşünas Əkrəm Həsənov "Yeni Müsavat" a açıqlamasında bildirdi ki, məclis sahibləri şadlıq saraylarının rəhbərliyi ilə şifahi danışıq zamanı şərtləri razılaşdırmalıdırlar. O vurğuladı ki, menyu, hətta süfrədə qalan yeməklərin məclis sahibinə verilməsi belə danışıqdan asılıdır: "Bu, hüquqi yox, daha çox mentalitetlə bağlı yanaşmadır. Toylara həddən artıq qonaq dəvət olunur, restoranlarda səs-küy çox olur, israfçılıq da həddən artıqdır və s. Restoranlar vəziyyətdən sui-istifadə edirlər. Hələ müğənnilərin dəvət olunması, onlara həddən artıq yüksək məbləğlərin ödənməsi də ayrıca problemdir. Müasir imkanlardan istifadə edib musiqi tərtibatını yüksək səviyyədə təşkil etmək olar. Bir sözlə, hesab edirəm ki, toy adət-ənənələrində dəyişiklik etməyin zamanı çoxdan çatıb".



Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə mövzu ilə bağlı qeyd etdi ki, quruma daim şadlıq sarayları ilə bağlı şikayətlər daxil olur. Onun sözlərinə görə, tələb təklifi üstələdiyi üçün bazar qanunlarına əsasən, keyfiyyətsiz xidmət verilir: "Şadlıq saraylarında nəinki menyunu dəyişdirməyə, süfrəyə gətiriləcək xörəklərin yerini dəyişdirməyə belə icazə verilmir. Sanki insanların məclisi tez tərk etməsi üçün konkret "alqoritm" müəyyən edilib - işıq, səs tembri, temperatur, ofisiantların davranışı, hər an hesablanıb. Qonaqlar məclisi tez tərk edəndə süfrədə qalan yeməklər sonradan başqa məclisdə istifadə olunur. Müğənnilərlə şadlıq saraylarının gizli razılığı da olur. Ofisiantlar elə hərəkət edirlər ki, heç nə itkiyə getməsin. Məsələn, içkini ancaq ofisiantlar süzür. İstehlakçı hüquqları böyük miqyasda pozulur. Yüksək məbləğlər qarşılığında isə kassa çeki təqdim olunmur. Onu da qeyd etmək lazımdır ki, kütləvi zəhərlənmə hallarında cavabdehlik daşıyan olmur. AQTA bu sahəyə nəzarət edə bilmir. Xüsusilə, rayonlarda süfrəyə 20 cür yemək veriləcəksə, onlardan yalnız bir neçəsi yoxlatdırılır, müvafiq sənəd də restoranlara təqdim olunur. Üstəlik, hesab edirəm ki, şadlıq sarayları ilə məclis sahibləri arasında müqavilə imzalanmasına dair Nazirlər Kabinetinin qərarı olmalıdır".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Millimizin İslandiya siftəsi - Özbəkistan səviyyəsinə necə çatmalı...

## Deputat ölkə futbolu barədə sərt danışdı: "Cəhənnəmə yaratmısan, gora yaratmısan, mənə futbol lazım deyil" deyirlər"

**Futbol üzrə dünya çempionatının final mərhələsi 2026-cı ilin 11 iyun-19 iyul tarixlərində 48 komandanın iştirakı ilə ABŞ, Meksika və Kanadada keçiriləcək.**

Azərbaycan millisinin DÇ-2026-nın seçmə mərhələsi üçün şansları açıqlanıb. "Fotball Meets Data" D qrupu üçün proqnozlarını yayıb.

Yığmamızın qrupda dördüncü yeri tutmaq ehtimalı 82 faiz olaraq göstərilib. Komandanın üçüncü olmaq şansı 17 faizdir. Millinin ikinci yerdə qərarlaşmaq ehtimalı 1 faizdirsə, liderlik mümkünsüzdür.

Məlumdur ki, Özbəkistan ilk dəfə DÇ-2026-nın finalına vəsiqə qazanıb. Futbolumuzu heç olmasa Özbəkistan səviyyəsinə qaldırmaq üçün bizə nə çatmır?

Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa "Yeni Müsavat" a söylədi ki, futbolumuzun yaxın gələcəkdə Özbəkistan, hətta Gürcüstan səviyyəsinə çatması gözlənilən deyil: "Çünki bizdə futbolun idarə edilməsində diletant yanaşma var. Cəmiyyət olaraq, bizim iki sahəyə xüsusi olaraq qeyri-ciddi yanaşmamız mövcuddur. Bunlardan biri təhsil, digəri idmandır. Ötən əsrin 70-ci illərində "Neftçi"nin heyətində 4-5 azərbaycanlı tapanda sevinirdik. Faktiki olaraq, bizdə uşaqların futbola yönləndirilməsi işi olduqca zəifdir.



Mərakeşin paytaxtı Rabatın ortasında açıq stadionlar gördüm. Hər dəfə yanından keçəndə insanın ürəyindən bir futbol oynamaq keçir. Mütləq idman infrastrukturları yaradılmalıdır. İç-içə inşa edilmiş binaların əksəriyyətinin yerində bir idman meydançası tikilməli idi. Amma bizdə bir bina, onunla yanaşı, daha bir bina tikilir".

F.Mustafanın sözlərinə görə, idman sahəsi bir çox hallarda idmana aidiyyatı olmayanlar tərəfindən idarə olunduğuna görə bu sahənin inkişafı çətindir: "Bir-iki futbol proqramı qəbul olundu. O proqramın çox cüzi bəndləri yerinə yetirilib. Halbuki, ölkə prezidenti bu sahədə kifayət qədər ciddi bir sənəd imzalayıb və təqdim edib ki, bunu həyata keçirin. Amma kim həyata keçirəcək? Onun üçün də Özbəkistan, yaxud Gürcüstan futboluna çatmaq bizim üçün gözlənilən deyil".

Millət vəkili "Neftçi" klubuna ayrılan pulların necə xərclənməsi barədə heç bir platformada müzakirə aparılmadığını bildirərək deyir: "Necə olur ki, "Qarabağ" uğur qazana bilir, amma ondan 10 qat artıq pul xərclənən bir "Neftçi" klubu uğur qazana bilmir? Eləcə də digər klublarımız. "Qarabağ" bütün mərhələləri adlayır, digər klublarımız ən yaxşı halda bir mərhələ keçirlər. Nə üçün? Bir mərhələ keçmələri azmış kimi, sonradan sökülüb, tökülüb, yoxa çıxırlar. Bütün bunların səbəbləri axtarılmalıdır. Bu pulları kim hara xərcləyir? Uşaq futboluna hansı pullar xərclənir? Bütün vəsait hara gedir? Bu günlərdə oxuyuram, bəzi ikinci dəstə komandaları uşaq futbolu üçün ayrı-ayrı bütün yaş qruplarında klublar yaradıblar. Amma onlara heç bir dəstək yoxdur, vəsait ayırmırlar. Onlara "cəhənnəmə yaratmısan, gora yaratmısan, mənə futbol lazım deyil" deyirlər.

İnkişaf etmək istəyiriksə, ikinci dəstədən başlamaq lazımdır. Birinci dəstəyə diqqət ayırmalıyıq. Təsəvvür edin ki, birinci dəstə klublarından, güclülərdən böyük rayonu təmsil edən klublardan bir neçəsi öz rayonunda oyun keçirə bilmir. Gəncə kimi böyük bir şəhərin komandası ötən il öz stadionunda oynaya bilmədi. Bunların hamısı doğrudan da ürəkağrıdan, müzakirə olunması vacib olan məsələlərdir. Amma kimsə hesabat sormur, hesabat verən də yoxdur".

Tanınmış idman yazarı Natiq Muxtarlının sözlərinə görə, Azərbaycan yığmasından DÇ-2026-nın seçmə mərhələsində nəticə gözləməyə dəyməz: "Nikbinlik üçün heç bir əsas yoxdur: futbolumuzda heç nə dəyişməyib. 3-4 ayın içində Azərbaycan millisinin futbolçuları Avropada rəqabət apara biləcək səviyyəyə yüksəlməyiblər. Ona görə də, boşuna ümidlənməyə dəyməz. Onsuz da Azərbaycanın futbol ictimaiyyəti hər ayın əvvəlində müəyyən müzakirələr aparır, nələrəsə ümid edir. Özü də bu müzakirələr ölkə futbolunda illərdir dəyişməyən idarəetmə fonunda aparılır. Amma sonra məyusluq, kədər olur.

Azərbaycan yığmasının uğur qazanması üçün əvvəlcə aşağı yaş qruplarından olan yığmalar Avropada uğur qazanmalıdır. Yəni əvvəlcə Avropada, dünyada rəqabət apara biləcək futbolçu yetişdirməliyik, ondan sonra isə millidən nəticə gözləməliyik.

Ən azı Özbəkistan yığması olmağımız üçün bu işə başlamaq lazımdır. Öncə Özbəkistanın aşağı yaş qruplarından olan yığmaları Asiya və dünya çempionatlarının final mərhələsində iştirak etdilər, uğur qazandılar, sonra növbə əsas komandaya çatdı. Özbəkistan Asiya ölkəsi olsa da, futbolçuları Avropanın adlı-sanlı klublarında özlərinə yer ediblər".

N.Muxtarlı deyir ki, 10-15 il əvvəl Azərbaycanın futbol təsərrüfatında idarəçilik necə idisə, indi də elədir. Biz isə Azərbaycan yığmasından DÇ-2026-nın seçmə mərhələsində nəticə gözləyirik. Mümkün deyil.

Biz futbolçu yetişdirməyə indi başlasaq, ən yaxşı halda 10-15 ildən sonra milli komandadan nəticə gözləyə bilərik. İndiki halda özümüzü aldatmayaq, nikbinlik üçün əlimizdə heç bir əsas yoxdur. Təsadüfi qələbəyə ümid edə bilərik, seçmə mərhələni də, yəqin ki, sonuncu pillədə başa vuracağıq".

***

Sentyabrın 5-də Azərbaycanın futbol üzrə milli komandası DÇ-2026-nın seçmə mərhələsi çərçivəsində ilk oyununa çıxıb. Matç Bakı vaxtı ilə saat 22:45-də start götürüb.

***P.S.** Qəzet çapa gedərkən oyunun nəticəsi bəlli deyildi...*

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 159 (8769) 6 sentyabr 2025

# Viruslar qayıdır - 9 gün sonra...

## Həkim deyir ki, yeni mutasiyalar olacaq, buna görə valideynlər diqqətli olmalıdırlar; "Əgər yanaşı xəstəliklər, allergiya, burun-boğaz problemləri varsa..."

**Sentyabrın ikinci yarısında məktəblərdə və ali məktəblərdə dərslərin bərpası ilə virus infeksiyalarının yayılma riski artacaq. Bu barədə danışan Səhiyyə Nazirliyinin infeksionist-eksperti Təyyar Eyvazov bildirib ki, insanların qapalı məkanlarda - dəhlizlərdə və sinif otaqlarında toplanması daha sıx təmaslara şərait yaradır.**

Bəs azyaşlılar və valideynlər nələrə diqqət etməli? Hansı qrup uşaqlar infeksiyalara daha həssasdır?

Həkim-pediatr Gülşən Əliyeva mövzu ilə bağlı "Yeni Müsavat"a şərh verib: "Hər il payız-qış mövsümündə havaların soyuması ilə əlaqədar yeni virus infeksiyaları yaranır və mutasiyaya uğrayır. Bu infeksiyalar əsasən uşaqlar arasında yayılır. Məktəblərin açılması ilə uşaqlar bir-birilə daha çox təmasda olur, nəticədə virus hava-damcı yolu ilə birindən digərinə keçir. Qapalı məkanlarda isə yayılma prosesi daha sürətli gedir. Elmi izahı isə belədir: soyuq havalarda burun boşluğunda virusları tutub məhv edən qabarcıqların fəaliyyəti zəifləyir. Onlar isti mühitdə aktiv olur, lakin uşaq soyuğa çıxanda onların sayı azalır. Uşaq yenidən isti mühitə qayıdanda virusla təmasda olsa, həmin qoruyucu hüceyrələrin sayı az olduğundan yoluxma ehtimalı artır".

Həkim valideynlərin diqqət etməli olduğu vacib məqamlara da toxunub: "Xəstə uşaq kollektivə buraxılmamalı, yalnız tam sağaldıqdan sonra dərsə qatılmalıdır. Ən çox allergiyası olan, immun sistemi zəif uşaqlar xəstəliyə daha tez yoluxur. Əgər uşaqda yanaşı xəstəliklər, allergiya, burun-boğaz problemləri varsa, bunlar vaxtında müalicə olunmalıdır. Anemiya, raxit keçirmiş, qidalanması zəif olan, çəki və boy problemi olan uşaqlar da həssas qrupa aiddir və digər uşaqlara nisbətən daha tez yoluxurlar.

Əsas məsələ uşağın praktik olaraq sağlam olması və xəstə halda kollektivə buraxılmamasıdır. Qrip vaksini dünyada geniş istifadə olunur, təhlükəsizdir. Uşaq tez-tez xəstələnirsə və ağır keçirirsə, qrip vaksinindən istifadə tövsiyə olunur. Bundan əlavə, burunun duzlu su ilə yuyulması da yoluxma riskini azaldır və virusun miqdarını aşağı salır".

Yeri gəlmişkən, hər il insanların daha çox ünvanlandığı sual qrip peyvəndləri ilə bağlı olur. Qrip peyvəndləri mövsümi qripə qarşı ən əsas qoruyucu vasitə sayılır. Hər il Ümumdünya Səhiyyə Təşkilatı və beynəlxalq laboratoriyalar tərəfindən qrip viruslarının hansı ştamlarının daha çox yayıldığı izlənilir və ona uyğun yeni peyvənd tərkibi hazırlanır. Bu səbəbdən qrip peyvəndi hər mövsüm təzələnir və əvvəlki illərdə vurulan peyvənd növbəti il üçün kifayət qədər qoruyucu olmur. Qrip peyvəndi uşaqlar, hamilə qadınlar, yaşlılar, immun sistemi zəif olanlar və xroniki xəstəliyi (astma, şəkərli diabet, ürək-damar problemləri və s.) olan şəxslər üçün xüsusilə tövsiyə olunur. Sağlam insanlarda da peyvənd qripin ağırlaşmasının qarşısını alır və yoluxma riskini azaldır.



Hazırda dünyada respirator viruslar arasında əsasən qrip virusları, COVID-19-un yeni variantları və digər mövsümi infeksiyalar dominantlıq təşkil edir. Qrip virusları içində daha çox influenza A tipinə aid olan ştamlar geniş yayılıb.

COVID-19 virusunun yeni variantları da dünya üzrə izlənilir. Hazırda NB.1.8.1 variantı daha çox artım göstərir və qlobal yoluxmalarda təxminən 10 faizdən artıq paya malikdir. Bundan başqa, Omikron mənşəli rekombinant XEC variantı da sürətlə yayılan ştamlar sırasındadır. Ümumdünya Səhiyyə Təşkilatı bildirir ki, bəzi əvvəlki variantların yayılma tempi zəifləsə də, NB.1.8.1-in artması müşahidə olunur.

Mövsümi respirator infeksiyalar arasında respirator sinisial virusu (RSV) da xüsusilə uşaqlar və yaşlılar arasında təhlükəli olaraq qalır. Bəzi bölgələrdə yoluxmaların 30 faizdən çoxunu təşkil edir. Norovirus infeksiyaları da, xüsusən Böyük Britaniyada, qış mövsümündə iki dalğa ilə müşahidə olunub. İnsan metapnevmovirus (HMPV) isə Çində və bəzi başqa ölkələrdə müəyyən olunub, lakin yayılma miqyası qrip və ya RSV ilə müqayisədə daha aşağıdır.

"Quş qripi" virusları da diqqət mərkəzindədir. H5N1 ştamı bir çox ölkələrdə quşlar arasında geniş yayılıb, lakin hələ ki, insandan insana yoluxma qeydə alınmayıb. ABŞ-da isə quş fermalarında H5N9 adlı yeni ştamm aşkarlanıb. Bundan başqa, Çinin Yunnan əyalətində yarasalarda Hendra və Nipah viruslarına oxşar yeni henipaviruslar müəyyən edilib və bu da potensial zoonotik təhlükə kimi qiymətləndirilir.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Vətəndaşlar tibbi arayışı əziyyətlə əldə edir, icbari sığorta paketinə daxil edilsinmi?

## **Rəşad Mahmudov:** "Tibbi arayışların icbari tibbi sığorta çərçivəsində əlçatan olması ədalətli və məqsədəuyğundur"

**Son günlər tibbi arayışların əldə edilməsi ilə bağlı poliklinikalarda yaranan sıxlıqlar əhali arasında ciddi narazılığa səbəb olub. Vətəndaşlar bir arayış üçün bir neçə tibb müəssisəsinə baş çəkməli olduqları, tibbi arayışı bir neçə günə əziyyətlə əldə etdiklərinə dair narazılıq edirlər. "Yeni Müsavat" redaksiyasına müraciət edən vətəndaşlar hər il avqustun sonu, sentyabrın əvvəlində bu halla qarşılaşdıqlarını, saatlarla, günlərlə növbələrdə əziyyət çəkdiklərini bildirirlər.**




Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) sorğumuza cavab olaraq bildirib ki, ali və orta ixtisas məktəbləri, kolleclər və liseylərdə yeni tədris ilinin başlanması ilə əlaqədar "Sağlamlıq haqqında arayış"lara (TQS 086) tələbat əhəmiyyətli dərəcədə artıb.

Qurumun mətbuat katibi Zamirə Adilovanın sözlərinə görə, təhsilə yeni başlayan uşaqların valideynləri tərəfindən də məktəbəqədər və orta təhsil müəssisələrinə təqdim etmək üçün tibbi sənədlərlə (TQS 026) bağlı müraciətlərdə də artım qeydə alınıb: "2024-cü ilin iyun-avqust aylarında arayışla bağlı müraciət edən uşaq sayı 73 093 nəfər olduğu halda, 2025-ci ilin iyun-avqust aylarında bu rəqəm 85 000 nəfərdən çox olub. Tələbatın əhəmiyyətli dərəcədə artması səbəbindən bəzi poliklinikalarda sıxlıq yaranıb. TƏBİB tərəfindən kadr təminatı gücləndirilib, tibbi avadanlıqların yenilənməsi və elektron sistemin daha da təkmilləşdirilməsi istiqamətində tədbirlər görülüb. Arayışların forması, ixtisaslı həkim müayinələri və instrumental-laborator müayinələr Səhiyyə Nazirliyinin qərarları ilə tənzimlənir. Arayış əldə etmək üçün sağlamlıq vəziyyətinin müəyyən olunması profilaktik müayinə olduğu üçün icbari tibbi sığorta təminatına daxil deyil. Lakin sosial layihə olaraq bəzi arayışlar icbari tibbi sığortanın təminatına alınıb. Bunlar 18 yaşa qədər uşaqların bütün növ arayışları - məktəbə, məktəbəqədər müəssisələrə, ali təhsil müəssisəsinə təqdim etmək üçün bütün sağlamlıq arayışlarıdır. Arayışlar artıq bütün tabeli tibb müəssisələrində elektron formada təqdim olunur. Vətəndaşlar elektron tibbi arayışı əldə etmək üçün ilk olaraq tibb müəssisəsinə ilkin müraciət etməli, laborator analizlər verməli, ixtisaslı həkim qəbullarından keçməlidir".

Açıqlamada o da bildirilib ki, istifadəçilər "E-tabib" mobil tətbiqi və http://kabinet.its.gov.az/\ veb-səhifəsinə daxil olaraq qeydiyyatdan keçdikdən sonra "Şəxsi kabinet"ə daxil olaraq, QR kod vasitəsilə tibbi arayışları elektron əldə edə bilərlər: "Elektron çap formanın üzərində olan QR kodu oxudaraq açılan veb-səhifədə arayışı "PDF" formatda yükləmək də mümkündür. Xatırladaq ki, arayışlar 1 ay müddətində etibarlıdır".

Z.Adilova əlavə edib ki, 18 yaşa qədər uşaqlardan "Sağlamlıq haqqında arayış"lara görə hər hansı formada ödəniş tələb olunması qanunsuzdur. "Belə hallarla rastlaşan vətəndaşlardan dərhal TƏBİB-ə və aidiyyəti qurumlara məlumat vermələri xahiş olunur", - deyə o qeyd edib.

Sözügedən problem növbəti dəfə tibbi arayışların icbari tibbi sığorta hesabına həyata keçirilməsini gündəmə gətirib.

Xatırladaq ki, hələ ötən il sağlamlığın qorunması hüququnun effektiv təmin edilməsi məqsədilə bütün tibb xidmətlərinin və xəstəliklərin icbari tibbi sığorta hesabına həyata keçirilməsi təklif edilib.

Bununla bağlı məsələ Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə hesabatı ilə bağlı təkliflər siyahısında yer alıb.

Hesabatda "Sağlamlıq haqqında tibbi arayış"ların icbari tibbi sığorta çərçivəsində verilməsi təklif edilib.

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov "Yeni Müsavat"a açıqlamasında sözügedən təklifi şərh etdi. Deputat qeyd etdi ki, ötən il həqiqətən də "sağlamlıq haqqında tibbi arayış"ın ödənişli xidmətlər siyahısından çıxarılaraq icbari tibbi sığorta çərçivəsində göstərilən "Xidmətlər zərfi"nə əlavə edilməsi ilə bağlı təklif irəli sürülmüşdü: "Bu məsələ Milli Məclisin Səhiyyə Komitəsində və digər aidiyyəti qurumlarda müzakirə predmetinə çevrilmişdi. Bu il də həmin təklif gündəmdədir və yaxın iclaslarda müzakirəyə çıxarılması nəzərdə tutulur. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi və digər müvafiq qurumlarla birlikdə məsələnin iqtisadi, tibbi və hüquqi əsasları qiymətləndiriləcək. Mənim şəxsi mövqeyim ondan ibarətdir ki, əhalinin geniş istifadə etdiyi və bir çox hallarda vətəndaşların müxtəlif orqanlara təqdim etməli olduqları tibbi arayışların icbari tibbi sığorta çərçivəsində əlçatan olması ədalətli və məqsədəuyğundur. Çünki vətəndaş tibbi xidmətlərin sığortalanması üçün məcburi şəkildə ödəniş edir və bu halda ən çox tələb olunan gündəlik xidmətlərin də həmin paketdə əks olunması tam məntiqlidir. Əlavə olaraq, bu addım həm vətəndaşların cibindən çıxan xərclərin azalmasına, həm də xidmətlərin vahid standart üzrə göstərilməsinə şərait yaradacaq. Bu təklifin müzakirəsi cari il də davam edəcək və mən bir millət vəkili olaraq hesab edirəm ki, sağlamlıq arayışlarının xidmətlər zərfinə daxil edilməsi həm sosial, həm də hüquqi baxımdan düzgün yanaşmadır".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 159 (8769) 6 sentyabr 2025

Sentyabr

## Bunları bilirsinizmi?

* Monakonun milli orkestri ordusundan daha geniş bir heyətə malikdir.
* Zürafələr üzə bilməz.
* Ortalama olaraq, Amerikada gündə üç ədəd cinsiyyət dəyişdirmə əməliyyatı reallaşmaqdadır.
* İnsan beyninin 80-% i sudur.
* Amerikada hər saat 40 adam xərçəngdən həyatını itirir.
* İrəli doğru bir addım atıldığında, insan bədənindəki 54 əzələ çalışar.
* İnsan beyninin ortalama ağırlığı 1.3 kq-dır.
* Birinin yüzünü xatırlamaq üçün beynin sağ tərəfi istifadə edilər.
* Yetkin bir insan gündə ortalama olaraq 23 min dəfə nəfəs alar.
* Qaşları yuxarı qaldırmaq üçün 30 əzələni hərəkətə keçirmək lazımdır.
* Kişilər qadınlara görə on qat daha çox rəng koru olurlar.
* Uşaqlar baharda daha çox böyüyür.
* Ortalama bir birə öz böyüklüyünün 150 qatı yüksəkliyə tullana bilir.
* İnsanlar bədənlərində 300 ədəd sümüklə doğulurlar amma yetkin olduqlarında bu ədəd 206-ya düşür.
* Hər dörd Amerikalıdan biri mütləq televiziyada görünür.
* Kəpənəklər ayaqlarıyla dad alırlar.
* Sarışınların əsmərlərə görə daha çox saçı vardır.

# Günəşdə partlayış baş verib



**Sentyabrın 5-də səhər saatlarında Günəşdə partlayış qeydə alınıb. Bu barədə Rusiya Tətbiqi Geofizika İnstitutundan məlumat verilib. "Sentyabrın 5-də Bakı vaxtı ilə saat 5:15-də 4207 (N28E00) Günəş ləkələri qrupunda rentgen diapazonunda 13 dəqiqə davam edən M1.4 partlayışı qeydə alınıb", - deyə məlumatda bildirilib.**

Qeyd edək ki, bundan əvvəl Rusiya Elmlər Akademiyası Kosmik Tədqiqatlar İnstitutunun Günəş Astronomiyası Laboratoriyası və Rusiya Elmlər Akademiyasının Sibir bölməsinin Günəş-Yer Fizikası İnstitutu Günəş aktivliyində artımın başa çatdığını və partlayış vəziyyətinin sürətlə normallaşdığını bildirmişdilər. Günəşdə partlayışlar rentgen şüalanmasının gücündən asılı olaraq beş sinfə bölünür: A, B, C, M və X. Minimum A0.0 sinfi Yerin orbitində bir kv.m-ə 10 nVt şüalanma gücünə uyğundur. Növbəti hərfə keçərkən güc 10 dəfə artır. Partlayışlar, adətən, Günəş plazmasının emissiyaları ilə müşayiət olunur ki, onların buludları Yerə çataraq maqnit qasırğaları yarada bilər.

İdman qocalmanı ləngidir: Fiziki aktivlik hansı hallarda daha effektiv təsir göstərir?

Müntəzəm fiziki aktivlik bioloji yaşı etibarlı şəkildə azaldır, lakin ən nəzərəçarpacaq təsir məşqə erkən başlayanlar və dözümlü olanlarda müşahidə olunur. Alimlər insanlar və heyvanlar üzərində aparılmış onlarla araşdırmanın təhlili nəticəsində belə qənaətə gəliblər. Nəticələr göstərib ki, fiziki aktivlik "epigenetik saat"ı - orqanizmin əsl bioloji yaşını təyin edən molekulyar mexanizmləri ləngidir. Xüsusilə nəzərəçarpan dəyişikliklər qanda və skelet əzələlərində müşahidə olunur; aktiv insanlarda bu orqanlarda hüceyrə strukturlarının "cavanlaşması" görünür. Alimlər bildirirlər ki, məşqlərin təsiri müxtəlif insanlarda və heyvanlarda fərqli ola bilər. Bu, fiziki hazırlığın ilkin səviyyəsindən, fərdi xüsusiyyətlərdən və konkret orqanların işindən asılıdır. Məsələn, dözümlü siçanlarda qocalma prosesi təkcə əzələlərdə deyil, həm də ürək, qaraciyər və piy toxumasında ləngiyib.

Müəlliflər qeyd edirlər ki, idmanı qocalığa qarşı universal vasitə hesab etmək olmaz, lakin toplanmış məlumatlar onu aktiv uzunömürlülüyü təmin etməyin ən əlçatan və effektiv üsullarından biri kimi nəzərdən keçirməyə imkan verir. Gələcəkdə alimlərin qarşısında bu təsirin molekulyar mexanizmlərini aşkar etmək və fərdi məşq proqramları hazırlamaq vəzifəsi dayanır.

## Həkim: "Qida rejiminin pozulması ilə yuxusuzluq arasında bağlılıq var"



**Yuxusuzluq qida rejiminin pozulmasına səbəb olur ki, bu da öz növbəsində hormonal dəyişikliklərə gətirib çıxarır. Rusiyalı həkim-somnoloq Maksim Novikov "İzvestiya" nəşrinə müsahibəsində yuxusuzluqla gecələr qidalanmaq sindromu arasındakı əlaqədən danışıb.**

"Gecələr qida qəbul etmək sindromu əsas şam yeməyindən sonra müntəzəm şəkildə qidalanmaqla xarakterizə olunur. Bu yanlış rejimin əsas nəticələri yuxunun pozulması, çəki artımı və gecə qəlyanaltılarından sonra yaranan özünü günahlandırma hissidir. Yuxusuzluq eyni zamanda toxluq hissindən məsul olan leptin hormonunun istehsalını azaldır, aclığı stimullaşdıran qrelinin istehsalını isə artırır. Nəticədə, gecələr həddindən artıq yeməyə fizioloji meyil yaranır. Əlavə olaraq, yavaş metabolizm, insulinə həssaslığın azalması və idrak funksiyalarının, o cümlədən özünü idarəetmə qabiliyyətinin zəifləməsi də müşahidə olunur", - deyə mütəxəssis qeyd edib.

Novikov vurğulayıb ki, yuxusuzluqla qidalanma pozuntuları arasındakı əlaqəni anlamaq effektiv müalicə strategiyalarının hazırlanmasına imkan verir. Bu səbəbdən, belə hallarda mütləq mütəxəssisə müraciət etmək lazımdır.

## Bəh-bəhlə yeyilir, amma xərçəng yaradır - Açıqlama

**Emal olunmuş qidalar xərçəng riskini artırır. Bunu onkoloq Prof. Dr. Türkan Öztürk Topçu deyib. "Xüsusi qatqı maddəli hazır qidalar bağırsaq florasını zədələyərək immuniteti zəiflədir və xərçəngə yol açır".**

Onkoloq bildirib ki, xərçəngin genetik səbəblərdən yaranma faizi çox aşağıdır. Xərçəng xəstəliyi əsasən həyat tərzi və qidalar səbəbindən yaranır. "Xüsusilə sosis, kolbasa, sucuk, paketlənmiş çipslər, biskvit, şirniyyatlar, hazır souslar və dondurulmuş fast-food məhsullarının yüksək miqdarda duz, şəkər, yağ və qatqı maddəsi ehtiva edir. Bu məhsullar bağırsaq mikroflorasını pozaraq bədənin müdafiə sistemini zəiflədir".

Professor yoğurt və kefir, fermentləşdirilmiş məhsullar, təzə meyvə-tərəvəz, tam taxıllar və zeytun yağı yeməyi məsləhət görüb. "Bu qidalar həm immuniteti gücləndirir, həm də hüceyrələrin özünü bərpa etmə gücünü artırır. İşlənmiş qidaların əvəzinə təbii məhsullar seçmək xərçəngə qarşı güclü qalxandır", - deyə onkoloq əlavə edib.

## Baş ağrılarının gizli səbəbi

**"Əgər mütəmadi olaraq küt və zoqquldayan baş ağrılarından əziyyət çəkirsinizsə, bu, təkcə yorğunluq və ya miqrenlə bağlı olmaya bilər".**

Milli.Az xəbər verir ki, rusiyalı ortodont İrina Didenko "Gazeta.ru"ya müsahibəsində baş ağrılarının daha az nəzərəçarpan səbəblərindən danışıb.

Onun sözlərinə görə, gərgin baş ağrılarının qiymətləndirilməmiş səbəblərindən biri dişləmə pozuntusu nəticəsində yaranan çeynəmə əzələlərinin hipertonusu ola bilər.

"Oklyuziya (üst və alt diş cərgələrinin bir-birinə uyğun gəlməsi - red.) pozulduqda diş-çənə sisteminə yük qeyri-bərabər paylanır. Bu isə çeynəmə əzələlərinin həddindən artıq gərginliyinə, nəticədə onların xroniki spazmına və baş ağrılarına səbəb ola bilər", - deyə Didenko bildirib.

Mütəxəssisin fikrincə, uzunmüddətli hipertonus zamanı əzələlər daimi narahatlıq mənbəyinə çevrilir. Pasiyentlər çox vaxt gicgah və ya başın arxa hissəsində sıxıcı ağrılardan, başda ağırlıqdan və istirahətdən sonra belə keçməyən yorğunluqdan şikayətlənirlər.

Dişləmə pozuntusu bruksizmə də səbəb ola bilər. Bruksizm - dişlərin qeyri-ixtiyari sıxılması və ya sürtülməsi (əsasən yuxu zamanı) deməkdir. Bu hal səhərlər baş ağrısı, yorğunluq və enerji çatışmazlığı ilə müşayiət oluna bilər. Uzun müddətdə isə dişlərin zədələnməsinə, çatların yaranmasına və diş minasında həssaslığın artmasına səbəb olur.

Həkimin sözlərinə görə, bu problemi ortodontik müalicə ilə həll etmək olar - məsələn, breketlərlə və ya daha müasir elaynerlərlə. Elaynerlər müalicə zamanı çeynəmə əzələlərində gərginliyi azaldır, dişlərin aşınmasının qarşısını alır və estetik baxımdan da üstünlük təşkil edir.

"Bir çox pasiyentlər təəccüblənirlər ki, dişləmənin düzəldilməsindən sonra yalnız gülümsəmələri yaxşılaşmır, həm də baş ağrıları keçir, yuxuları və ümumi vəziyyətləri normallaşır. Bu, təəccüblü deyil, çünki orqanizm vahid bir sistemdir və dişləmə burada mühüm rol oynayır", - deyə İrina Didenko əlavə edib. Mütəxəssis vurğulayıb ki, mütəmadi baş ağrıları, dişlərin sürtülməsi, səhərlər yorğun oyanma və ya çənə nahiyəsində ağrı hallarında ortodont həkiminə müraciət etmək vacibdir. "Düzgün diaqnostika və kompleks müalicə yanaşması yalnız simptomları yox, problemin səbəbini də aradan qaldırmağa kömək edir", - deyə Didenko bildirib.

## Yuxudan duran kimi qəhvə içmək zərərlidir - Kardioloq açıqladı

**Qəhvə milyonlarla insanın səhərinin ayrılmaz hissəsidir. Lakin, həkim-kardioloq Anastasiya Şçerbakın fikrincə, səhər qəhvəsini dərhal yuxudan sonra içmək düzgün deyil. Yuxudan sonra bədəndə kortizol səviyyəsi yüksək olur və qəhvənin təsiri zəifləyir, mədə isə qıcıqlana bilər. Həkim tövsiyə edir ki, ilk fincan 1,5-2 saat sonra və ya səhər yeməyi və ya qəlyanaltı ilə birlikdə içilsin.**

Gündə maksimum kofein dozası 400 mq, bir dəfəlik isə 200 mq-dır. Həddindən artıq kofein yuxusuzluq, əsəbilik, təz-yiqin artması və mədə-bağırsaq problemlərinə səbəb ola bilər. Şçerbak vurğulayır ki, qəhvənin faydalı olması üçün balanslı qəbul edilməlidir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500